**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Bakı Dövlət Universitetinin 90 və Kitabxanaçılıq-informasiya fakültəsinin 60 illik yubileyinə həsr olunur***

# KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ– 60

***Biblioqrafik məlumat kitabı***

**BAKI – 2008**

**BBK 78.5**

**Kitab Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, tarix elmləri doktoru, professor Xəlil İsmayılovun rəhbərliyi və ümumi redaktəsi ilə nəşr edilir**

**Tərtib edənlər:** **dos. İsmayılov Nadir İslam oğlu**
**b.m. Sadıqova Solmaz Azay qızı**

**Rəyçilər:** **prof. Xələfov Abuzər Alı oğlu**
**prof. Əliyev Zöhrab Hüseyn oğlu**
**prof. Allahverdiyev Bayram Vəli oğlu**

**İsmayılov N.İ., Sadıqova S.A**. Kitabxanaçılıq-informasiya fakültəsi – 60: Biblioqrafik məlumat kitabı.–B.: Bakı Universiteti Nəşriyyatı, 273s.

*Kitabda BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin kollektivinin 60 illik elmi-tədqiqat fəaliyyətinə nəzər salınır və həmin fəaliyyətin nəticələri olan əsərlərin biblioqrafik göstəricisi təqdim edilir.*

*Məlumat kitabı BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin inkişafı sahəsindəki xidmətlərinin və nailiyyətlərinin biblioqrafik yekunudur.*

*Biblioqrafik məlumat kitabı ali və orta ixtisas kitabxanaçılıq məktəblərinin professor-müəllim və tələbə kontingenti, o cümlədən geniş kitabxanaçılıq-biblioqrafiya ictimaiyyəti, sahə tədqiqatçıları üçün nəzərdə tutulmuşdur.*

$\frac{440\ 5000000\text{-}33}{658\ (07)\ –058}$ 058-2008

**ISBN 978-9952-8022-4-5**

© Bakı Universiteti Nəşriyyatı, 2008

*«Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.»*

**Heydər ƏLİYEV**
**Azərbaycan xalqının ümummilli lideri**

*«İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik.»*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

## TƏRTİBÇİLƏRDƏN

«Kitabxanaçılıq-informasiya fakültəsi – 60: biblioqrafik məlumat kitabı» fakültənin yubileyi münasibətilə tərtib olunmuşdur. Respublikamızda kitabxanaçılıq təhsilinin qısa müddətli kurslar formasında meydana gəlməsindən başlamış universitet təhsilli yüksək ixtisaslı kadr hazırlığı sisteminə çevrilməsinə qədər keçdiyi inkişaf yolu, onun ayrı-ayrı mərhələləri, fakültənin çoxsahəli fəaliyyəti, respublikamızda müxtəlif tipli kitabxanalar üçün yüksək ixtisaslı kitabxanaçı-biblioqraf kadrların yetişdirməsi və kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq üzrə elmi-tədqiqat işi sahəsindəki nailiyyətləri haqqında kitablar çap olunmuşdur. Bu məsələlər fakültənin yaradıcısı, kitabxanaşünaslıq elminin banisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Əməkdar elm xadimi, kitabxanaşünaslıq kafedrasının müdiri, tarix emləri doktoru, professor Abuzər Xələfovun müxtəlif illərdə nəşr olunmuş kitablarında («Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı» (1987), «Azərbaycanda ali kitabxanaçılıq təhsili» (1998) və s.) öz əksini tapdığı üçün bu topluda geniş məlumat verilmir.

Biblioqrafik məlumat kitabının hazırlanmasında, prof. A.Xələfovun indiyədək bu sahədə çap olunmuş kitabla-rından bəhrələndiyimiz üçün ona çox dərin təşəkkürümüzü bildiririk.

Fakültənin dekanı professor Xəlil İsmayılov kitaba «BDU-nun kitabxanaçılıq-informasiya fakültəsi – 60 ildə» adlı dolğun giriş məqaləsi yazmışdır.

Kitabxanaçılıq-informasiya fakültəsində 4 ixtisas kafedrası fəaliyyət göstərir: Kitabxanaşünaslıq (1947), Biblioqrafiyaşünaslıq (1968), Kitabxana resursları və informasiya axtarış sistemləri (1991), Kitabşünaslıq və nəşriyyat işi (1993). Biblioqrafik məlumat kitabında da materialların qruplaşdırılmasında məhz bu amil əsas götürülümüş, əvvəlcə hər bir kafedranın yaranması, inkişafı və əldə etdiyi elmi və tədris nailiyyətlərini əhatə edən oçerk verilmiş, sonra kafedralar üzrə professor-müəllim və işçi heyətinin əsərləri xronoloji ardıcıllıqla (əvvəlcə kitablar, sonra isə elmi, elmi-kütləvi xarakterli məqalələr) verilmişdir.

Fakültə alimlərinin dissertasiya işlərinin müdafiəsinə həsr olunmuş ayrıca bölmə verilmişdir ki, bu da fakültənin elmi arsenalı və əsaslı elmi-tədqiqat fəaliyyəti haqqında informasiyanın əldə olunmasında mühüm rol oynayır. Biblioqrafik məlumat kitabından istifadəni asanlaşdırmaq üçün «Müəlliflərin əlifba göstəricisi» adlı yardımçı aparatın verilməsi onun informasiya dolğunluğunu daha da artırır.

Kitabxanaçılıq-informasiya fakültəsinin 60 illik yubileyinə həsr olunmuş biblioqrafik məlumat kitabı haqqında rəy və təkliflərini bildirənlərə əvvəlcədən təşəkkür edirik.

## BDU-nun KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ – 60 İLDƏ

Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir və iftixarıdır. Azərbaycan təhsil sisteminin formalaşmasında, müxtəlif elm sahələri üzrə tədqiqat işlərinin aparılmasında, milli mədəniyyətimizin formalaşmasında Bakı Dövlət Universitetinin müstəsna xidmətləri olmuşdur.

Bakı Dövlət Universitetinin aparıcı fakültələrindən biri də Kitabxanaçılıq-informasiya fakültəsidir. Azərbaycanda ali kitabxanaçılıq təhsilinin əsası 1947-1948-ci tədris ilində BDU-nun Filologiya fakültəsinin nəzdində qoyulmuşdur. Həmin tədris ilində Filologiya fakültəsinin yanında Kitabxanaçılıq şöbəsi təşkil olunmuşdur. Birinci il şöbəyə 20 tələbə qəbul edilmişdir. Şöbənin ilk ixtisas müəllimləri Xalq yazıçısı S.Rəhimov, Ə.Qəhrəmanov, H.Tağıyev və M.Səmədova olmuşdur. Şöbədə 1955-ci ildə qiyabi azərbaycan, 1959-cu ildən isə qiyabi rus bölməsi açılmışdır. 1958-ci ildə Kitabxanaçılıq şöbəsi Şərqşünaslıq fakültəsinin tərkibinə daxil edilmişdir. 1962-ci il avqust ayında Bakı Dövlət Universitetində müstəqil Kitabxanaçılıq fakültəsinin təşkil olunması haqqında qərar qəbul olunmuşdur.

1962-ci ildən bu günə kimi Kitabxanaçılıq-informasiya fakültəsinə 3 dekan başçılıq etmişdir:

1. Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov (1962-1970; 1979-1993-cü illər)
2. Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi, professor Zöhrab Hüseyn oğlu Əliyev (1970-1979-cu illər )
3. Tarix elmləri doktoru, professor Xəlil İsmayıl oğlu İsmayılov (1993-cü ildən bu günə kimi )

Kitabxanaçılıq –informasiya fakültəsində 4 ixtisas kafedrası fəaliyyət göstərir:

1. Kitabxanaşünaslıq kafedrası-1947-ci ilin oktyabr ayında yaradılmışdır. Kafedranın ilk müdiri Ə.Qəhrəmanov

olmuşdur. (1947-1959-cu illər) 1959-1963-cü illərdə H.Əlizadə kafedraya rəhbərlik etmişdir. 1963-cü ildən bu günə kimi Əməkdar elm xadimi, professor A.A.Xələfov kafedraya rəhbərlik edir.

2. Biblioqrafiyaşünaslıq kafedrası-1968-ci ildə təşkil edilmişdir. Kafedranın ilk müdiri biblioqraf-alim dos. Ə.T.Xələfov olmuşdur. (1968-1978-ci illər). 1978-1983-cü illərdə dosent H.Həsənov kafedraya rəhbərlik etmiş, 1984-cü ildən bü günə kimi kafedranın müdiri Əməkdar mədəniyyət işçisi, professor Z.H.Əliyevdir.

3. Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrası-1991-1992-ci tədris ilində Kitabxanaşünaslıq kafedrasının bazasında təşkil edilmişdir.

Kafedranın ilk müdiri mərhum dosent T.F.Quliyev təyin edilmişdir. 2007-ci ildən kafedranın müdiri tarix elmləri doktoru, professor X.İ.İsmayılovdur.

4. Kitabşünaslıq və nəşriyyat işi kafedrası 1992-ci ildə yaradılmışdır. Kafedra yaranandan tarix elmləri doktoru, professor B.V.Allahverdiyev ona başçılıq edir.

Kitabxanaçılıq-informasiya fakültəsində iki istiqamət üzrə ali təhsilli bakalavr kadrlar hazırlanır:

1. HS 151700 Kitabxanaşünas –biblioqraf
2. HS 061000 Kitabşünaslıq

Magistr pilləsində 4 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir:

1. HSM 150017-Kitabxanaşünaslıq
2. HSM 150020 –Biblioqrafiyaşünaslıq
3. HSM 150023 Kitabxana fondunun formalaşması və istifadəsi
4. HSM 06005 Nəşriyyat işi və redaktəetmə

Kitabxanaçılıq-informasiya fakültəsi Azərbaycan Respublikasında kitabxanaşünas-biblioqraf, kitabşünas və nəşriyyat redaktoru hazırlayan yeganə ali təhsilli kadrlar hazırlayan təhsil ocağıdır. Fakültənin maddi-texniki bazası, elmi-pedaqoji potensialı tədrisin dünya standartları

səviyyəsində təşkilinə şərait yaratmışdır. Fakültənin müvafiq kafedralarında 3 tədris, 1 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir.

Kitabxanaçılıq-informasiya fakültəsində tədrisin təşkili, elmi-tədqiqat işlərinin araşdırılmasında 60 il ərzində formalaşmış kollektivi mühüm rol oynayır. Burada ölkəmizdə və dünyanın müxtəlif ölkələrində tanınan, nüfuzlu və görkəmli alimlər çalışır. Fakültənin professor-müəllim və işçi heyətinin tərkibi aşağıdakı kimidir:

1. Elmlər doktoru , professor- 4 nəfər
2. Elmlər namizədi, professor- 1 nəfər
3. Elmlər namizədi, dosent- 10 nəfər
4. Elmlər namizədi, müəllim- 2 nəfər
5. Baş müəllim- 9 nəfər
6. Müəllim- 4 nəfər
7. Laboratoriya müdiri-4 nəfər
8. Aspirant (əyani)-4 nəfər
9. Baş metodist- 1 nəfər
10. Baş laborant- 4 nəfər
11. Laborant-2 nəfər

## KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİNİN KAFEDRALARI:

### KİTABXANAŞÜNASLIQ KAFEDRASI

Azərbaycanda kitabxanaşünaslıq elmi əsasən XX əsrin II yarısından başlayaraq inkişaf etməyə başlamışdır. Bu dövrdə universitet səviyyəsində yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf hazırlayan fakültənin təşkili kitabxanaşünaslıq elminin tədricən formalaşmasına təsir edirdi. Bu kafedralar arasında ilk dəfə yaranan kitabxanaşünaslıq kafedrası ali kitabxanaşünaslıq təhsilinin formalaşmasına təsir etməklə yanaşı, öz strukturunu da genişləndirirdi. Kitabxanaşünaslıq kafedrası 1947-ci ilin oktyabr ayında ilk dəfə olaraq universitetin filologiya fakültəsinin kitabxanaşünaslıq şöbəsində tədris işinin təşkili üçün ixtisas kafedrası kimi yaradılmışdır. Məlumdur ki, ali təhsil müəssisələrində kadr hazırlığı bilavasitə kafedraların fəaliyyəti

ilə bağlıdır. Lakin kitabxanaşünaslıq kafedrası tədrisin təşkilində iştirak edərkən milli kitabxanaşünaslıq elmi səviyyəsindən yüksəlmişdir. Hazırda kitabxanaşünaslıq adı ilə fəaliyyət göstərən kafedra təşkil edilərkən kitabxanaşünaslıq və biblioqrafiya kafedrası adlanırdı.

Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının yaranması Azərbaycan kitabxanaşünaslığı və biblioqrafiyaşünaslığı tarixində çox mühüm bir hadisə idi. İlk elmi özək kimi bu kafedra kitabxanaçılıq şöbəsinin yüksək ixtisaslı müəllim kadrları ilə təmini, ilk elmi mühazirələrin oxunmasının təşkili, fənn proqramlarının tərtibi, dərs vəsaitlərinin, elmi məqalələrin yazılması və müzakirəsi işində mühüm rol oynayırdı. Respublikamızda kitabxanaşünaslıq və biblioqrafiya elminə dair ilk sanballı elmi tədqiqatların aparılması üçün şərait yarandı. Məhz bu kafedranın fəaliyyəti nəticəsində Azərbaycan kitabxanaşünaslıq elminin bünövrəsi qoyulmuşdur, eyni zamanda respublikada kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın əsaslı şəkildə elmi tədqiqinə başlanmışdır. Bu fikri söyləməklə XX əsrin I yarısından sonra kitabxanaşünaslıq və biblioqrafiya sahəsində görülən işlərə kölgə salınmır. Burada söhbət fundamental elmi- tədqiqat işlərinin aparılmasından gedir. Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının yaranmasında və fəaliyyətə başlanmasında xalq yazıçısı, böyük ziyalı Süleyman Rəhimovun xüsusi rolu olmuşdur. O dövrdə ixtisas üzrə elmi adı və dərəcəli mütəxəssislər olmadığına görə kafedranın təşkilində ciddi çətinliklər meydana gəlmişdir. Süleyman Rəhimov az bir zaman içərisində universitetin rəhbərliyi ilə birlikdə bu kafedrada işləmək üçün mütəxəssislər seçmiş, onlar universitetə dəvət edilmişlər.

1947-ci ildə kafedranın ilk müdiri vəzifəsinə görkəmli biblioqraf alim Əliheydər Qəhrəmanov təyin edilmişdir. İxtisasca filoloq olan Ə.Qəhrəmanov uzun illər Bakının kütləvi kitabxanalarında kitabxanaçı, kitabxana müdiri işləmiş, Bakı kitabxanaçılıq texnikumunda  müəllim, sonra direktor vəzifələrində çalışmışdır. Bir müddət Respublika Dövlət Kitab Palatasının müdiri işləyən Ə.Qəhrəmanov dissertasiya işi müdafiə etdikdən sonra ömrünün axırınadək kitabxanaşünaslıq və

biblioqrafiya kafedrasına rəhbərlik etmişdir. Ə.Qəhrəmanov kitabxanaşünaslıq və biblioqrafiyanı dərindən sevən kitabxanaçılıq təhsilinin inkişafına canla-başla xidmət edən, özünə qarşı tələbkar, zəhmətkeş tələbələrə hörmətlə yanaşan sadə, təvazökar bir alim idi.

Kitabxanaşünaslıq kafedrasına dəvət edilən ilk müəllimlərdən biri də Hüseyn Tağıyev olmuşdur. O, 1948-ci ildən kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının müəllimi kimi kitabxanaşünaslıq fənnindən mühazirə oxumuşdur. H.Tağıyev Bakı şəhər kütləvi kitabxanalarında çalışmışdır. Universitetə dəvət alan zaman M.F.Axundov adına Milli Kitabxananın direktoru vəzifəsində işləyirdi. Kitabxanalardakı əməli işi və kitabxana işinə rəhbərlik prosesində qazandığı zəngin təcrübə onun səriştəli mütəxəssis kimi formalaşmasına səbəb olmuşdur. Respublikamızın kitabxana xadimlərindən biri olan H. Tağıyev həmçinin bir neçə vəsaitin və kitabların müəllifidir. Bununla yanaşı, XX əsrin 50-ci illərində kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında dərs deyən müəllimlərdən biri M.F.Axundov adına Milli Kitabxananın elmi işlər üzrə direktor müavini Məryəmxanım Səmədova olmuşdur. O, kitabxanaçılıq işinə dair bir sıra vəsaitlər hazırlamışdır.

1952-ci ildə universitetdə kitabxanaçılıq şöbəsinin ilk buraxılışı oldu. Şöbəni bitirən 16 nəfər yüksək ixtisaslı mütəxəssis Respublikamızın kitabxanalarına işə göndərildi. Artıq universitet təhsilli gənc mütəxəssislərlə kafedranın elmi potensialını gücləndirmək imkanı yaranmışdı və belə kadrlara böyük ehtiyac duyulmaqda idi. Həm də şöbədə yeni tədris planının tətbiqi ilə əlaqədar dərslər artmışdı. Ancaq bu imkandan bir neçə il sonra istifadə etmək mümkün oldu. 1955-ci ilin yanvar ayında kitabxanaşünaslıq və biblioqrafiya kafedrası şöbənin V kurs tələbəsi Abuzər Alı oğlu Xələfovun yüksək təhsil göstəricilərini və ictimai fəaliyyətini nəzərə alaraq müəllim saxlanılması haqqında qərar qəbul etdi və rektorluqdan bu qərarın icrasını xahiş etdi.

Bu dövrdə universitetin rektoru, akademik Y.Məmmədəliyev kafedranın xahişini nəzərə aldı. Abuzər Xələfov 1955-ci ilin iyun ayında qiyabi şöbədə, sentyabr ayında isə

əyani şöbədə mühazirələr oxumağa başladı. Elə bu təyinat demək olar ki, kitabxanaşünaslıq elminin və ali kitabxanaşünaslıq təhsilinin inkişafına böyük təkan verdi. 1956-cı ildə kitabxanaçılıq şöbəsinin ilk məzunlarından biri Murad Şəmsizadə kafedraya müəllim dəvət edildi. 1950-ci illərin axırında fakültənin məzunlarından Hacı Balay oğlu Həsənov və Əşrəf Teymur oğlu Xələfov kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında işləməyə başladılar. Kitabxanaşünaslıq şöbəsini müvəffəqiyyətlə bitirən gənclərin kitabxanaşünaslıq-biblioqrafiya kafedrasına cəlb edilməsi kafedranın işinin canlanmasına, tədris keyfiyyətinin yüksəlməsinə, ixtisas kurslarının artmasına, tələbələr arasında elmi-tədqiqat və tərbiyə işinin yaxşılaşdırılmasına səbəb oldu. Kafedranın elmi-tədqiqat işlərində də böyük dəyişiklik baş verdi. Gənc müəllimlər namizədlik dissertasiyası müdafiə etmək üçün elmi mövzular üzərində işləməyə başladılar. Həmçinin kafedraya aspirant yeri verildi. Biblioqrafiya ixtisası üzrə verilmiş bu yeri – kitabxanaşünaslıq şöbəsini 1954-cü ildə bitirmiş Zöhrab Hüseyn oğlu Əliyev tutdu.

Qeyd etdiyimiz kimi, 1959-cu ilə qədər kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq kafedrasına Ə.H.Qəhrəmanov başçılıq etmişdir. Ondan sonra kafedrada ixtisas müəllimlərindən heç birinin elmi adının olmadığını bəhanə gətirən şərqşünaslıq fakültəsinin rəhbərliyi qeyri-qanunu olaraq fars dili kafedrasının dosenti, filologiya elmləri namizədi Həsən Əlizadənin kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına müdir seçilməsinə nail oldu. H.Əlizadə ixtisasçı olmadığına baxmayaraq 1959-cu ildən 1963-cü ilə qədər kafedraya müdirlik etmişdir.

1963-cü ildən bu vəzifəni kitabxanaçılıq fakültəsinin yetirməsi, tarix elmləri namizədi, dosent, fakültənin dekanı Abuzər Alı oğlu Xələfov tutdu. Abuzər Xələfov bu vəzifədə indiyə qədər, yəni 44 ilə yaxındır ki, müvəffəqiyyətlə çalışır.

Kitabxanaşünaslıq-biblioqrafiya kafedrası yüksək ixtisaslı müəllim kadrların yetişdirilməsində də mühüm rol oynamışdır. Kafedrada belə bir ənənə formalaşdırılmışdır: fakültəni müvəffəqiyyətlə bitirən gənc kadrlar laborant

vəzifəsinə işə götürülür, sonra əyani və qiyabi aspiranturaya qəbul edilir, yaxud kafedranın dissertantı kimi fəaliyyət göstərirdi. Aspiranturanı bitirmiş şəxslər isə kafedraya müəllim qəbul edilirdi.

Müxtəlif illərdə T. Quliyev, X.İsmayılov, Z.Baxşəliyev, A.Əliyev aspiranturanı bitirdikdən sonra kafedraya müəllim vəzifəsinə keçirilmişlər. E.Bədəlov, M.Həsənov, S.Rzayev, A.Abbasova kafedrada laborant işləməklə namizədlik dissertasiyaları müdafiə etmiş və müəllim vəzifəsinə seçilmişlər.

60-cı illərdə kitabxanaçılıq fakültəsində informatika fənləri tədris etmək üçün informatika ixtisası üzrə aspiranturanı bitirmiş Ə.Rüstəmov fakültəyə müəllim qəbul edildi. S.Mustafayeva baş laborant vəzifəsindən müəllim vəzifəsinə keçirildi, A.Cəfərov aspiranturanı bitirdikdən sonra müəllim vəzifəsinə keçirildi. 70-ci illərdə kafedranın tərkibi respublikamızın kitabxanalarında işləyən zəngin kitabxana işi təcrübəsinə malik olan, istehsalatdan gələn kadrlar hesabına möhkəmləndi. Azərbaycan MEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru, pedaqoji elmlər namizədi Rasim Əhməd oğlu Kazımov və Naxçıvan Muxtar Respublikası Dövlət Kitabxanasının direktoru Murtuz Məmmədbağır oğlu Bağırov kafedraya müəllim seçildilər.

1980-1990-cı illərdə fakültəni müvəffəqiyyətlə bitirən məzunlardan M.Ə.Məmmədov, K.Aslan, E.Y.Əhmədov təyinatla müxtəlif vəzifələrdə çalışdıqdan sonra kafedraya dəvət olunmuş, aspiranturanı bitirib müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edərək dosent vəzifəsini tutmuşlar.

Kitabxanaşünaslıq və biblioqrafiya kafedrası 1968-ci ildən biblioqrafiya kafedrası yaranana qədər fakültənin tədris prosesini təşkil etmiş, bütün ixtisas fənlərinin tədrisini təmin etmək üçün kadrlar hazırlamış, aspirantlar yetişdirmiş, tədris proqramları hazırlamışlar. Kafedra dərsliklərin, dərs vəsaitlərinin, elmi məqalələrin yazılmasında və çap edilməsində də mühüm işlər görmüşdür.

Uzun illər fakültənin təkcə ixtisas kafedrası kimi fəaliyyət göstərən bu kafedra kitabxanaşünaslıq və biblioqrafiyaşü-

naslığın bir fənn, bir elm sahəsi kimi təşəkkül tapıb formalaşmasında və inkişafında elmi-metodiki baza rolunu oynamış, respublikamızın elmi kadrlar hazırlamaq sahəsində yeganə mərkəzi olmuşdur. Ali kitabxanaçılıq təhsili verən fakültənin inkişafı üçün üç yeni müstəqil kafedranın yaranması məhz bu kafedranın, burada çalışan sadə, zəhmətkeş fədakar insanların, görkəmli kitabxanaşünas-biblioqraf alimlərin fəaliyyəti ilə bağlıdır.

Respublikamız müstəqillik əldə etdikdən sonra bütün fəaliyyət sferalarında olduğu kimi təhsil sahəsində də islahatların keçirilməsinə başlandı. İslahat prosesində iştirak dən BDU-nun bütün strukturları kimi kitabxanaşünaslıq kafedrası da yeni təhsil sisteminə keçidlə bağlı üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldi. Kitabxanaçılıq-informasiya fakültəsində sanballı kafedra kimi formalaşan kitabxanaşünaslıq kafedrası elmi dərəcəsi olan kadr potensialına görə fakültədə ön yerdə gedir. Kafedranın müdiri professor A.A.Xələfov kitabxanaşünas-alim kimi, həmçinin milli kitabxanaşünaslığın banisi olaraq əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, «Şöhrət ordeni» kimi yüksək ali rütbələrə layiq görülmüşdür.

Əməkdar elm xadimi, prof. A.Xələfov üç pilləli təhsil sisteminə (bakalavr, magistratura və doktorantura) keçildikdən sonra kitabxanaşünaslıq kafedrasının fəaliyyətində təhsil islahatları ilə bağlı ciddi dönüş yaratmağa müvəffəq oldu. Belə ki, artıq kafedranın tədris planı yeni təhsil sisteminə uyğun quruldu. Bakalavr və magistr hazırlığının başlanğıc dövründə kitabxanaşünaslıq kafedrasının iş prinsipləri fakültənin və digər kafedralar üçün önəmli xarakter daşıdı.

Kafedrada yeni tədris pilləsinə keçidlə bağlı bakalavr və magistr pilləsində ixtisaslaşmanın müasir tələblərinə cavab verən dərsliklər, dərs vəsaitləri, proqramlar nəşr edilmişdir. Hazırda bakalavr hazırlığı üzrə «Kitabxanaşünaslığa giriş», «Azərbaycanda kitabxana işinin tarixi», «Kitabxanaçılıq işinin əsasları», «Kitabxana işinin təşkili və idarə olunması», «Kitabxanaların elmi-metodiki təminatı», «Kitabxanaçılıq informatikası», «Kitabxana-informasiya fəaliyyətinin texniki

vasitələri», «Dünya kitabxanalarının tarixi», «Oxuculara xidmət», «Kitabxana işinin iqtisadiyyatı», «Rəqəmli kitabxana sistemləri», «Kitabxanalarda fandrayzinq fəaliyyəti», «Kitabxanalar və sosial proseslər» fənləri, magistr pilləsində «Kitabxanaşünaslığın tarixi, nəzəriyyəsi və metodologiyası», «Kitabxanaşünaslığın müasir problemləri», «Dünya milli kitabxanaları», «Kitabxana marketinqi» kimi fənlər müvəffəqiyyətlə tədris olunur.

Kafedranın bu sahədəki ən yüksək nailiyyəti kimi qeyd etmək lazımdır ki, əsas fənlər sırasında olan «Kitabxanaşünaslığa giriş» və «Azərbaycanda kitabxana işinin tarixi» fənləri üzrə dərsliklər nəşr edilib tələbələrin istifadəsinə verilmişdir. Hər iki dərsliyin müəllifi Əməkdar Elm Xadimi, Kitabxanaşünaslıq kafedrasının müdiri prof. A.A.Xələfovdur. Prof. A.A.Xələfov bununla yanaşı «H.Əliyev və Azərbaycanda kitabxana işi», «XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri», «Kitabxana işinin kompüterləşməsi» və s. kimi sanballı monoqrafiyalar və dərsliklər yaratmışdır. Kitabxanaşünaslıq kafedrasında həm bakalavr, həm də magistr hazırlığında tədris olunan fənlərin demək olar ki, hamısı proqramla təmin olunmuşdur.

1998-2007-ci illərdə kitabxanaşünaslıq kafedrasında onlarla HSM 150017 – Kitabxanaşünaslıq ixtisası üzrə magistrantlar magistr elmi dərəcəsi alaraq AMEA-nın Mərkəzi Elmi kitabxanasında, M.F.Axundov adına Milli kitabxanada, Azərbaycan Respublikası İşlər İdarəsinin «Prezident kitabxanası»nda və s. müəssisələrdə məsul işlərdə müvəffəqiyyətlə çalışırlar.Kitabxanaşünaslıq kafedrası kitabxana işinin dünya standartlarına uyğunlaşdırılması sahəsində nəzəri və təcrübi kitabxanaşünaslığın vəhdəti problemləri ilə də ciddi məşğul olur. Kitabxanaşünaslıq kafedrasının nəzdində yaradılmış «Kitabxana işinin kompüterləşməsi» laboratoriyası prof. A.A.Xələfovun rəhbərliyi ilə müvəffəqiyyətlə fəaliyyət göstərir və Azərbaycanda kitabxana işinin kompüterləşdirilməsi problemini elmi və nəzəri cəhətdən tətbiq edən yeganə elmi müəssisə – tədqiqat laboratoriyasıdır. Bu laboratoriyada prof.

A.A.Xələfovun rəhbərliyi altında 6 nəfər elmi işçi çalışır ki, onlardan 4 nəfəri kitabxanaşünaslıq ixtisası üzrə magistr elmi dərəcəsi almışdır. Respublikada gedən tədris islahatları ilə əlaqədar kitabxanaşünaslıq kafedrasının illik iş planı, illik dərs yükü, ayrı-ayrı semestrlər üzrə müəllimlərin təqvim planları, elmi tədqiqat işlərinə dair hesabatlar, kafedralarda tədris edilən fənlərə dair proqramlar, həmin fənlər üzrə imtahan biletləri, kafedra iclaslarının protokolları və başqa sənədlər mövcud tələblər səviyyəsində hazırlanır.

Kitabxanaşünaslıq kafedrasının nəzdində «Kitabxana işinin təşkili və idarə olunması» adlı tədris laboratoriyası fəaliyyət göstərir. Laboratoriya kitabxanaşünaslıq kafedrasının müəllimlərinin və digər mütəxəssis kitabxanaçı kadrların müxtəlif növ materiallarını, dərslikləri, dərs vəsaitləri, proqram və digər tədris ədəbiyyatını, ixtisasa dair dövri nəşrləri toplayıb tələbələrin və işçi heyətinin tələbatını ödəmək funksiyasını yerinə yetirir.

Kitabxanaşünaslıq kafedrasının elmi-tədqiqat işləri üç istiqamətdə: dissertasiya işi mövzuları işləyib müdafiə etmək, dərsliklər, dərs vəsaitləri, metodik göstərişləri hazırlayıb nəşr etdirmək, elmi məqalələr yazıb nəşr etdirmək istiqamətində aparılır. Bundan başqa elmi müzakirələrin keçirilməsi, elmi-metodik işlərin aparılması və elmi seminarların təşkili kafedranın elmi tədqiqat işlərinin əsas tərkib hissəsi olmuşdur. Kitabxanaşünaslıq üzrə ilk tədqiqatlar kitabxana tarixi mövzusuna həsr edilmişdir. Son zamanlar müstəqil fənn kimi formalaşan, əsas tərkib hissələrindən biri olmaqla kitabxanaşünaslığın hərtərəfli öyrənilməsinə ciddi köməklik göstərən və zəmin yaradan kitabxana tarixinin tədqiqi böyük zərurət kəsb etmişdir. Bu fənn eyni zamanda cəmiyyətin inkişafının müxtəlif mərhələlərində kitabxana işinin inkişaf qanunauyğunluqlarını meydana çıxarır, kitabxanaların sosial rolunu, elm, maarif, mədəniyyət və təsərrüfatın inkişafındakı xidməti ümumiləşdirir, əhaliyə kitabxana xidmətinin vəziyyətini öyrədir, həmçinin kitabxanaçılıq fikrinin inkişafını tədqiq edir. Kitabxana tarixinin öyrənilməsi kitabxanaşünaslıq kafedrasında aparılan elmi-tədqiqat işlərinin çərçivəsində dayanır. Bu iki istiqamətdə özünü təsdiq edir. İlk növbədə bütün fənlərin və elm sahələrinin tədqiqi

onun tarixindən başlanır. Kitabxana tarixinin öyrənilməsi də bu baxımdan kitabxananın növləri tədqiqinə geniş imkanlar yaradır. Digər bir tərəfdən kitabxanaşünaslıq kafedrasının müdiri prof. A.A.Xələfov hələ 1961-ci ildə «Azərbaycanda kitabxana işinin tarixi (1920-1932-ci illər)» mövzusunda namizədlik dissertasiyası, 1975-ci ildə isə, «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Məhz bu elmi tədqiqatların nəticələri kimi kitabxanaşünaslıq kafedrasının elmi potensialı güclənmiş və bu sahədə elmi tədqiqat işlərinin aparılmasına start verilmişdir. Kafedra formalaşdırıldıqdan sonra kafedranın əməkdaşlarından T.F.Quliyev 1968-ci ildə «Azərbaycanda həmkarlar ittifaqı kitabxanalarının tarixi (1920-1941)», R.Ə.Kazımov 1972-ci ildə «Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyası (1920-1965)», 1973-cü ildə S.M.Rzayev «Ömər Faiq Nemanzadənin ədəbi publisistik fəaliyyəti», Ə.M.Rüstəmov «Azərbaycan neft sənayesi işçilərinin biblioqrafik informasiya təminatı sisteminin mexanikləşdirmə və avtomatlaşdırma vasitələri əsasında işlənməsi və təhlili»,E.Bədəlov «Sosializmin təkmilləşməsi dövründə Azərbaycan SSR-də kənd əhalisinə kitabxana xidmətinin təşkili (1959-1970)», X.İ.İsmayılov 1984-cü ildə «Azərbaycan partiya kitabxanaları sovet hakimiyyəti illərində», 1989-cu ildə Z.İ.Baxşəliyev «Azərbaycan neft sənayesi elmi-texniki kitabxanaları», 1990-cı ildə A.N.Abbasova «M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanasının inkişafı və təkmilləşdirilməsi (1959-1985)», A.M.Əliyev «Naxçıvan MSSR-də kitabxana işi (1920-1985)» mövzusunda müvəffəqiyyətlə namizədlik dissertasiyaları müdafiə etmişlər.

Kitabxanaşünaslıq kafedrasının elmi-tədqiqat sahəsində işlərin təşkili, namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi müstəqillik dövründə milli ideoloji istiqamət olaraq davam etdirilmişdir. Kitabxanaşünaslıq kafedrası müstəqillik ilərində Azərbaycanda əhaliyə kitabxana xidmətinin mühüm istiqamətləri problemini ümumi tədqiqata cəlb edərək kafedranın elmi istiqamətini müəyyən etmişdir. Kafedranın müasir dövrədək fəaliyyətini təhlil edərkən onu iki mərhələyə bölmək olar. Birinci mərhələ postsovet məkanı mərhələsi, ikinci mərhələ isə müstəqillik

dövrünə təsadüf edir. Birinci mərhələdə həm post sovet məkanı dövründə kitabxanaşünaslıq kafedrası öz fəaliyyətini zəmanənin tələbinə uyğun qurmuş, elmi tədqiqat işlərinin məzmununda partiyalılıq prinsiplərini rəhbər tutaraq inkişaf mərhələləri keçmişdir. Kitabxanaşünaslıq kafedrasında aparılan elmi tədqiqat işləri, dissertasiya işlərinin bir hissəsi məhz həmin dövrə düşmüşdür.

Əvvəldə qeyd etdiyimiz kimi müstəqillik illərində kafedranın fəaliyyəti daim inkişaf etmiş, elmi-tədqiqat işlərinin, dissertasiyaların tədqiqində, fənlərin tədrisinin təkmilləşdirilməsində milli ideoloji istiqamət özünə yer almışdır. Kafedrada fənlərin tədrisi ilə bağlı respublikada gedən təhsil islahatları və onun xarakterik cəhətləri müəyyənləşdirilmiş, demək olar ki, kafedranın fəaliyyəti tamamilə təhsil islahatlarının tələblərinə uyğun qurulur.

Kafedranın müdiri Əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki A.A.Xələfov kitabxanaşünaslıq elmi sahəsindəki xidmətlərinə görə, ali kitabxanaçılıq təhsili sahəsindəki fəaliyyətinə görə ümummilli lider mərhum prezident H.Ə.Əliyevin sərəncamı ilə Əməkdar Elm Xadimi, həmçinin «Şöhrət ordeni»nə layiq görülmüşdür. Ötən sovet dövründə, istərsə də müstəqillik dövründə A.A.Xələfov kitabxanaşünaslıq kafedrasına uzun müddətli rəhbərlik edərək yüksək elmi nailiyyətlər əldə olunmasına nail olmuşdur.

Kitabxanaşünaslıq kafedrası son 5-6 ildə kitabxana işinin müxtəlif problemlərinə dair namizədlik və doktorluq dissertasiyalarının müdafiələri ilə əlamətdar olmuşdur. Bu dissertasiyaların tədqiqində elmi rəhbər əməkdar elm xadimi professor A.A.Xələfovun elmi potensialı və şəxsi nüfuzu əhəmiyyətli rol oynamışdır. Bunun bariz nümunəsi olaraq 2000-ci il dekabr ayının 6-da kitabxanaşünaslıq kafedrasının müəllimi E.Y.Əhmədov və M.Ə.Məmmədov AAK tərəfindən yaradılmış birdəfəlik ixtisaslaşdırılmış müdafiə şurasının iclasında müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmişlər. E.Y.Əhmədov «Azərbaycanda uşaqlara kitabxana xidmətinin təşkili (1901-1995)», M.Ə.Məmmədov isə «Azərbaycan Respublikası kitabxanalarında KAA sistemi (1918-1990)» ilə bağlı

tədqiqatları yekunlaşdırmış və müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcələr almışlar. Bundan bir il sonra kafedranın dissertantı Ə.Ş.Nəcəfov EA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində ixtisaslaşdırılmış müdafiə şurasının iclasında «Azərbaycan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin tarixi» (1923-1988) mövzusunda, daha sonra kafedranın dissertantı Ş.İ. İslamova, «Azərbaycan EA-nın kitabxana şəbəkəsinin yaranması və inkişafı» (1923-1990) mövzusunda, kitabxanaşünaslıq kafedrasının baş müəllimi K.İ.Aslan «Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu» mövzusunda namizədlik dissertasiyaları müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi almışlar. Qeyd etmək lazımdır ki, müdafiə edən bütün aspirant və dissertantlara Əməkdar elm xadimi professor A.A.Xələfov rəhbərlik etmişdir.

Müstəqillik illərində kitabxanaşünaslıq kafedrasında aparılan ən mühüm elmi nailiyyətlərdən biri də uzun fasilədən sonra doktorluq dissertasiyasının müdafiəsi olmuşdur. Belə ki, kafedranın dosenti X.İ.İsmayılov 2004-cü ildə «Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi: 1918-2000-ci illər (Tarixi, müasir vəziyyəti və perspektivləri)» mövzusunda müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi adı almışdır. Beləliklə, kafedranın elmi potensialı yüksəlib, alimlər sırasına bir professor da əlavə olunmuşdur. Hazırda kitabxanaşünaslıq kafedrasında 1 nəfər tarix elmləri doktoru professor, 6 nəfər elmlər namizədi dosent, 2 nəfər baş müəllim, 1 nəfər laboratoriya müdiri, 2 nəfər isə laborant fəaliyyət göstərir. Kafedranın nəzdindəki «Kitabxana işinin kompüterləşdirilməsi» elmi-tədqiqat laboratoriyasında prof. A.A. Xələfovun rəhbərliyi ilə 2 dosent, 4 nəfər elmi işçi fəaliyyət göstərir. Beləliklə, kitabxanaşünaslıq kafedrası hal-hazırda kitabxanaçılıq-informasiya fakültəsinin aparıcı kafedrası kimi universitetin bütün fəaliyyət sferasında tədrisinin təşkilində, elmi - tədqiqat işlərinin aparılmasında ictimai-siyasi həyatındakı müvəffəqiyyətləri çoxdur və daim nailiyyətlər əldə edir. 2007-ci il kitabxanaçılıq-informasiya fakültəsi məhz kitabxanaşünaslıq kafedrasının elmi fəaliyyətinə görə BDU- da reytinq şkalası üzrə fakültələr sırasında birinci yeri tutmuşdur. Fakültənin bu

yüksək göstəriciyə nail olması qeyd etdiyimiz kimi məhz kitabxanaşünaslıq kafedrasında aparılan elmi işlərin səviyyəsinə görə mümkün olmuşdur.

## BİBLİOQRAFİYAŞÜNASLIQ KAFEDRASI

60-cı illər fakültənin həyatında bir çox əlamətdar hadisələrlə zəngin olmuşdur. Fakültənin qəbul planı artmış, maddi-texniki bazası möhkəmlənmiş, elmi kadrların, xüsusilə elmlər namizədlərinin hazırlanması sahəsində dönüş baş vermişdir. Bütün bunlar fakültədə yeni, müstəqil Biblioqrafiya kafedrasının yaradılması üçün əlverişli şərait yaratmışdı. Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi 1968-ci ildə universitet rektorluğunun xahişini nəzərə alaraq Kitabxanaçılıq fakültəsində Kitabxanaşünaslıq və Biblioqrafiya kafedrasının bazasında ayrıca Biblioqrafiya kafedrasının təşkil edilməsi haqqında əmr verdi. Bu əmrə uyğun olaraq Biblioqrafiya kafedrası açıldı və onun ilk müdiri vəzifəsinə pedaqoji elmlər namizədi, dosent, uzun illər təcrübi sahədə işləmiş peşəkar biblioqraf, bir sıra elmi əsərlərin və biblioqrafik göstəricilərin müəllifi, fakültənin ilk yetirmələrindən biri olan Əşrəf Teymur oğlu Xələfov seçildi.

Müstəqil Biblioqrafiya kafedrasının yaranması mühüm hadisə idi və ali kitabxanaçılıq təhsilinin daha da təkmilləşməsi, biblioqrafiya fənlərinin tədrisinin keyfiyyətcə yaxşılaşdırılması və nəhayət, biblioqrafiyaşünaslığa dair elmi-tədqiqat işlərinin aparılması üçün müstəsna əhəmiyyət kəsb edirdi.

Biblioqrafiya kafedrasında ilk işləməyə başlayan müəllimlər sırasında prof. Zöhrab Əliyev, dos. Əşrəf Xələfov, dos.Hacı Həsənov, prof. Bayram Allahverdiyev, dos. Fərman Bayramov var idi. 70-80-ci illərdə kafedraya cavan qüvvələr cəlb edilməyə başladı. Aspiranturanı müvəffəqiyyətlə bitirmiş Nadir İsmayılov, Rasim Süleymanov kafedrada müəllim saxlanıldılar. Sonrakı illərdə Kitabxanaçılıq fakültəsinin ənənəsinə uyğun olaraq kafedrada laborant kimi işləyən məzunlardan Raifə Vəzirova, Qəmzə Hacıyeva, Sima

İsmayılova müəllim vəzifəsinə keçirildilər. Aspiranturanı bitirmiş Əliyusif Məmmədov, Solmaz Sadıqova kafedraya müəllim qəbul edilmişdir. Hazırda kafedranın professor – müəllim heyəti 8 nəfərdən ibarətdir. Bunlardan bir nəfəri elmlər namizədi, professor, iki nəfəri elmlər namizədi, dosent, dörd nəfər baş müəllim, bir nəfəri isə müəllimdir.

Biblioqrafiyaşünaslıq kafedrasının yaranması həmçinin respublikamızda biblioqrafiyaşünaslığa dair elmi-tədqiqat işlərinin canlanmasına, yeni-yeni tədqiqatların ortaya çıxmasına səbəb oldu. Kafedranın xətti ilə ilk aspirantların qəbul edilməsi elmi kadrların hazırlanmasına müsbət təsir göstərdi. Aspirant Nadir İsmayılov Moskva şəhərində müvəffəqiyyətlə dissertasiya müdafiə edib elmlər namizədi adına layiq görüldü. Kafedrada tədris prosesinin təşkili əhəmiyyətli dərəcədə yaxşılaşdı. Tədris planı üzrə aparılan müxtəlif ixtisaslaşmalarla və Azərbaycanşünaslıqla bağlı yeni fənlər tədris olunmağa başladı. Müstəqil Biblioqrafiyaşünaslıq kafedrası 40 ilə yaxındır ki, fəaliyyət göstərir. Kafedranın ilk müdiri 1968-78-ci illərdə dos. Əşrəf Xələfov, 1978-83-cü illərdə dos. Hacı Həsənov olmuşdur. 1983-cü ildən bu günə kimi isə kafedraya Əməkdar mədəyiyyəi işçisi, 1970-80-ci illərdə fakültənin dekanı olmuş, Azərbaycan biblioqrafiyasının tarixinin ilk və görkəmli tədqiqatçısı prof. Zöhrab Əliyev başçılıq edir.

Kafedranın inkişafında və təkmilləşməsində hər üç alimin xidmətlərini xüsusi qiymətləndirmək lazımdır. Xüsusilə prof. Z.H.Əliyevin fəaliyyəti dövründə kafedra xeyli genişlənmiş, əməkdaşların sayı artmış, dissertasiyalar müdafiə olunmuş, dərsliklər, dərs vəsaitləri, elmi məqalələr yazılmışdı. Respublikamızda bu sahədə aparılan elmi-tədqiqat işlərinə biblioqrafiya ixtisası üzrə yeganə professor olan Z.Əliyev rəhbərlik edir.

Hazırda fakültənin strukturunda Biblioqrafiyaşünaslıq kafedrası mühüm yerlərdən birini tutur və müasir biblioqrafiyaşünaslığın inkişafı, təkmilləşdirilməsi üçün əsaslı işlər görür.

Fakültənin əsas ixtisas kafedralarından biri kimi fəaliyyət göstərdiyi illər ərzində Biblioqrafiyaşünaslıq kafedrasının əməkdaşları ardıcıl olaraq elmi-tədqiqat işi aparmışlar. Kafedranın elmi–tədqiqat fəaliyyətində dissertasiya işlərinin tədqiqinə həmişə ciddi fikir verilmiş, biblioqrafiyaşünaslığın ayrı-ayrı problemləri dissertasiya mövzuları kimi işlənmişdir.

Azərbaycanda biblioqrafik təhsilin və tədrisin təşkilində Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının müdiri Ə.Qəhrəmanovun xidmətlərini minnətdarlıq hissi ilə qeyd etmək lazımdır.

Biblioqrafiyaşünaslıq kafedrasında bilavasitə Biblioqrafiyaşünaslıq ixtisası üzrə müdafiə edilmiş ilk dissertasiya Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının biblioqrafiya ixtisası üzrə ilk aspirantı (aspiranturaya 1956-cı ildə qəbul olunmuşdu) Zöhrab Hüseyn oğlu Əliyevin adı ilə bağlıdır. 1956-cı ildə kafedra tərəfindən təsdiqlənmiş «Azərbaycanda biblioqrafiya işinin tarixi (1920-1958-ci illər)» adlı dissertasiya mövzusu üzərində tədqiqat aparan Z.H.Əliyev onu 1963-cü ildə yazıb başa çatdırmış və Azərbaycan Pedaqoji İnstitutunun Elmi Şurasında müdafiə edib pedaqoji elmlər namizədi alimlik dərəcəsini almışdır.

Respublikamızda bu sahəyə dair heç bir tədqiqat aparılmadığından mövzunun öyrənilməsi və ciddi bir elmi – tədqiqat əsərinin yaradılması respublikamızda biblioqrafiyaşünaslığın inkişafında mühüm hadisə idi.

Müəllifin respublikanın arxiv sənədləri və böyük kitabxanaların sənədləri əsasında yazıb başa çatdırdığı bu tədqiqat fakültənin tələbə və müəllimləri üçün də böyük əhəmiyyət kəsb edirdi.

1970-ci ildə kafedranın müəllimi Fərman Bayramov «Cəlil Məmmədquluzadə irsinin nəşr tarixi və yazıçının biblioqrafiyası» adlı namizədlik dissertasiyasını Azərbaycan Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunun elmi şurasında müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsini aldı. Gənc tədqiqatçı Fərman Bayramovun dissertasiya işində C.Məmmədquluzadə əsərlərinin nəşri və biblioqrafiyası haqqında geniş və ətraflı

məlumat verilməklə yanaşı, yazıçının əsərləri mətnşünaslıq nöqteyi-nəzərindən tədqiq olunmuş, onun təxəllüslərinin müəyyənləşdirilməsi məsələlərinə də toxunulmuş, elmi ictimaiyyət üçün qiymətli faktlar aşkara çıxarılmışdır.

XX əsrin 80-90-cı illərində kafedraya yeni müəllimlər götürülmüşdür. Onlardan biri aspirant Nadir İsmayılov 1987-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir.

Biblioqrafiyaşünaslıq kafedrası respublikada biblioqrafiyaşünasılq sahəsində elmi-tədqiqat işi aparan əsas mərkəzdir. Müstəqillik əldə edildikdən sonra biblioqrafik fəaliyyətin ayrı-ayrı sahələri üzrə qoyulan problemlər də bilavasitə milli biblioqrafik dəyərlərimizin yeni istiqamətdən öyrənilməsi və müasir tələblər əsasında qiymətləndirilməsi ilə əlaqədardır. Kafedranın elmi əməkdaşları tədris etdikləri fənləri və apardıqları əlaqədar elmi – tədqiqat işlərini müstəqil Azərbaycan Respublikasının sosial-siyasi həyatı ilə yaxından əlaqələndirir, biblioqrafik fəaliyyətin təşkili, inkişafı vəziyyətini tədqiq etməklə yanaşı milli dəyərləri ümumi bəşəri dəyərlərlə daha da zənginləşdirmək, biblioqrafiya sahəsində ümumdünya informasiya bazarına çıxmaq, beləliklə milli və ümumbəşəri zəmində biblioqrafik informasiya xidməti yollarını müəyyənləşdirmək üçün ciddi səy göstərirlər. Məsələn, kafedranın aparıcı dosentlərindən Əşrəf Teymur oğlu Xələfov klassik ədəbi biblioqrafik qaynaqların meydana çıxarılması, onların müasir baxımdan biblioqrafik mahiyyətlərinin müəyyənləşdirilməsi sahəsində müvəffəqiyyətli tədqiqatlar aparır və onun bəzi nəticələri artıq fakültənin elmi məcmuəsində dərc olunmuşdur. Kafedranın digər aparıcı dosenti Nadir İsmayılov Azərbaycanın kitabxana-biblioqrafiya ehtiyatlarının inkişafı, vəziyyəti, perspektivləri, yerləşdirilməsi və onlardan istifadə səmərəliliyi sahəsində və müstəqil Azərbaycanın informasiya tələbatçıları biblioqrafik təsir miqyasının genişləndirilməsi və biblioqrafik təminatda bir çox cəhətdən kompleksliliyin, həyata keçirilməsi üçün əhəmiyyətli olan problemin həlli istiqamətində çox maraqlı tədqiqat aparır. Bunun da ilk nəticələri respublikada və xaricdə dərc olunmuşdur.

Kafedrada aparılan elmi – tədqiqatların əsas məqsədlərindən biri də milli dəyərlərimizə əsaslanan, müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi uğrunda gedən ciddi mübarizə zamanının və buna müvafiq səviyyədə ali təhsilli peşəkar kitabxanaçı-biblioqraf kadrların hazırlanması tələblərinə uyğun gələn tədris ədəbiyyatını yaratmaqdan ibarətdir. Azərbaycan biblioqrafiyasının tarixi, respublikanın mühüm kitabxanalarında biblioqrafik fəaliyyətin ayrı-ayrı sahələrinin təşkili, alim və mütəxəssislərin biblioqrafik informasiya təminatının müasir problemləri ilə əlaqədar aparılan tədqiqatlar bu cəhətdən diqqətəlayiqdir.

Bakalavr pilləsi üçün təsdiq olunmuş tədris planına görə fakültədə «Ümumi biblioqrafiyaşünaslıq», «Kitabxanada biblioqrafiya işinin təşkili və metodikası», «Sahəvi biblioqrafiya», o cümlədən «Sosial-siyasi ədəbiyyatın biblioqrafiyası», «Təbii-elmi, texniki və kənd təsərrüfatı ədəbiyyatını biblioqrafiyası», «Dünya biblioqrafiyasının tarixi», «Azərbaycan biblioqrafiyasının tarixi», «Ölkəşünaslıq biblioqrafiyası», «Uşaq və gənclər üçün ədəbiyyatın biblioqrafiyası», «Patent və normativ-texniki sənədlərin biblioqrafiyası» kimi fənlər tədris olunur.

«Ümumi biblioqrafiyaşünaslıq kursu» biblioqrafik fənlərin elmi-nəzəri əsasını təşkil edr. Bu kurs vasitəsilə tələbələr hər şeydən əvvəl biblioqrafik fəaliyyətin meydana gəlməsinə və inkişafına səbəb olan amillər, biblioqrafiyanın nəzəriyyəsində mühüm kateqoriya olan biblioqrafik informasiya, onun səciyyəvi xüsusiyyəti, mahiyyəti, əsas ictimai funksiyaları, biblioqrafik fəaliyyətin inkişaf qanunauyğunluqları, onun çoxcəhətli quruluşu haqqında aydın təsəvvür əldə edirlər.

Daha sonra «Kitabxanada biblioqrafiya işinin təşkili və metodikası» fənni tədris edilir ki, bununla da tələbələrə aldıqları nəzəri biliklərin təcrübədə tətbiq olunması mexanizmi və metodikası öyrədilir.

Kitabxanaçılıq-informasiya fakültəsində tədris olunan biblioqrafik fənlər silsiləsində sahəvi biblioqrafiya kursları da mühüm yer tutur. Sahəvi biblioqrafik fənlər bir qayda olaraq üç kompleks kursa bölünür: «Sosial- siyasi ədəbiyyatın

biblioqrafiyası, «Təbii-elmi, texniki və kənd təsərrüfatı ədəbiyyatının biblioqrafiyası», «Bədii ədəbiyyat, ədəbiyyatşünaslıq və incəsənətin biblioqrafiyası». 1996-1997-ci tədris ilinə qədər, o cümlədən, bakalavr təlimi dövründə də fakültənin tələbələri arasında ixtisaslaşma aparıldığına görə tədris planının üz hissəsində göstərilən «Sahəvi biblioqrafiyaşünaslıq» fənninin və ya fənlər silsiləsinin tədrisi zamanı əsasən nəzəri, ümumi, metodiki və bir qədər də tarixi məsələlərə diqqət verilirdi. Bununla bərabər sahəvi biblioqrafiyalar xüsusi ixtisaslaşma fənni kimi də tədris olunur, bu zaman hər sahənin səciyyəvi xüsusiyyətlərinə uyğun tətbiqi problemlərə xüsusi fikir verilir, kitabxanalarda əlaqədar sahədə biblioqrafik xidmətin təşkili və həyata keçirilməsi metodikası öyrədilirdi.

1997-1998-ci tədris ilində bakalavr təlimi mərhələsində ixtisaslaşma ləğv edildi. Beləliklə, «Sosial-siyasi ədəbiyyatın biblioqrafiyası», «Təbii-elmi, texniki və kənd təsərrüfatı ədəbiyyatının biblioqrafiyası» və «Bədii ədəbiyyat, ədəbiyyatşünaslıq və incəsənətin biblioqrafiyası» kimi kurslar ümumi fənn kimi tədris olunur və nəzəri, metodiki və tətbiqi məsələlərlə əlaqədar xüsusi bölgü aparılmır.

Biblioqrafik fəaliyyətin ayrı-ayrı prosesləri bu sahədə əldə edilən nailiyyətləri bilməyi, keçmiş biblioqrafik informasiya mənbələrindən xəbərdar olmağı və onlardan istifadəni bacarmağı, keçmişin qabaqcıl metodiki ənənələrini mənimsəməyi, ümumiyyətlə, dünya miqyasında mövcud olan biblioqrafik məhsuldan xəbərdar olmağı tələb edir. Məhz buna görə də tədris planında «Dünya bibiloqrafiyasının tarixi» və «Azərbaycan biblioqrafiyasının tarixi» fənlərinə xeyli saat verilmişdir.

Bakalavr təlimi mərhələsində «Uşaq və gənclər üçün ədəbiyyatın biblioqrafiyası» və «Patent və normativ-texniki sənədlərin biblioqrafiyası» fənləri tədris olunur.

Bakalavr mərhələsində müstəqil Azərbaycan Respublikasının yerli şəraitə, milli ənənələrimizə uyğun, yeni dövlət quruculuğumuzun tələblərinə cavab verən tədris proqramları hazırlanmış və tələbələrin istifadəsinə verilmişdir.

Qeyd etmək lazımdır ki, 1997-1998-ci tədris ilindən magistr təhsil mərhələsi başlanmışdır. Kitabxanaçılıq fakültəsində magistr mərhələsi üçün verilən istiqamət «Kitabxanaşünaslıq və biblioqrafiya –HS-151700» adlanır. Bununla əlaqədar olaraq biblioqrafiya kafedrasında yeni fənlər sislsiləsi yaranmış və bunlar üç qrupda ümumiləşdirilmişdir. Birinci, sosial-iqtisadi fənlər sırasındadır və «Biblioqrafik fənlərin tədrisi metodikası» adlanır. İkinci ixtisaslaşmaya uyğun ümumi fundamental elmi fənn kimi götürülən «Biblioqrafik informasiya: nəzəri-metodoloji əsasları» kursudur və üçüncü qrup ixtisaslaşma fənlərindən ibarət 8 kursdan ibarətdir.

1997-98-ci tədris ilində tədris planına uyğun olaraq magistr təhsili üzrə qəbul başlanmışdır. Bu kafedra üzvlərinin qarşısında tamamilə yeni ölçülü və məzmunlu vəzifələr qoymuşdur. Kafedranın elmi-pedaqoji heyəti hər şeydən əvvəl magistr təhsili tələblərinə uyğun tədris proqramları hazırlamalı idi. Kafedranın elmi adı olan əməkdaşları magistraturada tədris olunan bütün fənlər üzrə tədris proqramlarının tərtibi işini başa çatdırmış və onlar kafedra və fakültə elmi şurası iclaslarında müzakirə olunub təsdiq edilmişdir. 1998-ci ildə tərtib olunmuş proqramlardan «Biblioqrafik proseslərin texniki vasitələri və AİAS», «Azərbaycanın biblioqrafik vəsaitlər sistemi», «Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslığın biblioqrafiyası», «Azərbaycanda incəsənətin biblioqrafiyası», «Sahələrarası biblioqrafiya» və başqa kurslar üzrə magistr proqramlarını qeyd etmək olar.

Kafedranın əməkdaşlarından prof. Z.H.Əliyev, dos. Ə.T.Xələfov, dos. N.İ.İsmayılov, müəl. Ə.Məmmədov Azərbaycan Xalq Cumhuriyyətinin 80 illik yubileyi ilə əlaqədar universitetimizdə keçirilən elmi konfransda öz maraqlı mövzuları ilə çıxış etmişlər. Professor Z.H.Əliyev «Beynəlxalq biblioqrafik əməkdaşlıq və Azərbaycanın orada iştirakı məsələsi», dos. Ə. T. Xələfov «Azərbaycan ədəbi biblioqrafiyasının tarixi müstəqil fənn kimi», dos. N.İ.İsmayılov «Azərbaycanın kitabxana – biblioqrafiya eh-

tiyatı və onun səmərəli istifadə problemləri», müəl. Ə. M. Məmmədov «Azərbaycan Respublikası Mərkəzi Elmi Kitabxanasının cari biblioqrafik vəsaitlərinin təbiət elmlərinin biblioqrafik informasiya təminatında rolu» mövzularında məruzə etmişlər. Məruzələrin tezisləri elmi konfransın materiallarında dərc olunmuşdur.

Kafedranın dosenti N.İ.İsmayılov elmi-tədqiqat işi sahəsində daha səmərəli fəallığı ilə fərqlənmişdir. O, Moskva Mədəniyyət Universitetinin («Kitabxanalar XXI əsrin astanasında») 1998-ci il aprel ayının 15-16-da keçirdiyi beynəlxalq elmi konfrans materiallarında və Tbilisi şəhərində keçirilən başqa bir beynəlxalq konfransın materiallarında (iyun, 1998-ci il) «Azərbaycanın kitabxana – biblioqrafiya ehtiyatı: formalaşması və yerləşməsi problemləri» mövzusundakı məruzəsinin, tezislərini dərc etdirmişdir.

Kafedranın elmi tədqiqat fəaliyyəti qabaqcadan planlaşdırılır. Əvvəlki, dövrdən fərqli olaraq 2006-cı ildən elmi tədqiqat işi üç il üzrə, yəni 2008-ci ilə qədər nəzərdə tutulmuşdur və dövlət qeydiyyat mərkəzi tərəfindən təsdiq olunmuşdur.

2006–2008-ci illər üçün elmi istiqamət kimi «Azərbaycan biblioqrafiyaşünaslığı» götürülmüş və «Azərbaycan respublikasında biblioqrafik fəaliyyətin təşkili» probleminin planlaşdırılmasında mühüm vasitələrdən olan biblioqrafik informasiya ehtiyatlarının tədqiq olunması və respublika əhalisinə biblioqrafik xidmətin təkmilləşdirilməsi yollarının müəyyənləşdirilib nəzəri-metodiki cəhətdən əsaslandırılması və tətbiqi ilə bağlıdır. Elmi işin yerinə yetirilməsi mərhələlərə görə müəyyənləşdirilmişdir.

Kafedrada elmi-nəzəri seminarlar da davam etdirilir. Belə seminarlarda prof. Z.H.Əliyev «Biblioqrafik informasiyanın səciyyəvi keyfiyyətləri», dos. Ə.T.Xələfov «XIX əsr Azərbaycan təzkirəçiləri», müəl. Ə.Məmmədov «Xüsusi növ sənədlərin biblioqrafik mənbələri» ilə əlaqədar maraqlı məruzələrlə çıxış etmişlər.

Kafedranın müdiri professor Zöhrab Əliyevin «Ümumi biblioqrafiyaşünaslıq» fənni üzrə dərs vəsaiti 2001-ci ildə, «Azərbaycan biblioqraftyasının tarixi» fənni üzrə dərsliyi 2007-ci ildə çap olunmuşdur. Bunlardan əlavə N.İ.İsmayı-

lovun «Azərbaycanın biblioqqrafik ehtiyatlarının inkişafı və perspektivləri» mövzusunda yazdığı doktorluq dissertasiyası ilə əlaqədar 2 monoqrafiyası (rus dilində) çap olunub. Ümumiyyətlə, dos. N.İ.İsmayılovun son beş ildə 70 çap vərəqindən çox kitabı və məqalələri çap olunmuşdur.

Kafedranın qiyabi aspirantı olmuş Solmaz Sadıqova aspirantların və gənc tədqiqatçıların Respublika elmi konfransında (11 fevral 1998; 19 may 1998) «Azərbaycanda ümumi biblioqrafiyanın əsas mərkəzləri», «Azərbaycan kitabının milli biblioqrafik repertuarının yaradılması problemi» və s. mövzularda məruzə ilə çıxış etmişdir.

Bundan başqa b.m.S.Sadıqovanın «Kitabi-Dədə-Qorqud» dastanının Bakı Dövlət Universitetində tədqiqi: Biblioqrafik göstərici», F.Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanasının metodiki və biblioqrafik materialları (1965-1995-ci illər)», «Abel Məhərrəmov: Biblioqrafik məlumat kitabı», «Abuzər Xələfov: Biblioqrafik məlumat kitabı» Heydər Əliyev: biblioqrafik məlumat kitabı (prof. A.Xələfovla birlikdə) və s. kimi yazıları çap olunmuşdur. Hazırda S.A.Sadıqova fakültənin humanitar və sosial məsələlər üzrə dekan müavinidir.

Kafedranın üzvlərindən X.Ağayeva, S.Sadıqova və S.İsmayılova dissertasiya işlərini müzakirə üçün kafedraya təqdim etmişlər.

1986-cı ildən kafedranın «Biblioqrafik-informasiya axtarış sistemləri» tədris laboratoriyası fəaliyyət göstərir. Laboratoriyanın ilk müdiri kafedranın baş müəllimi Əliyusif Məmmədov olmuşdur. Hazırda laboratoriya müdiri vəzifəsində Xuraman Ağayeva çalışır. Laboratoriya biblioqrafiyaya dair təcrübi fənlərin tədrisində mühüm rol oynayır.

Müəllim və tələbələrin müxtəlif növ sənədlərə – dərsliklərə, dərs vəsaitlərinə, proqramlara, biblioqrafik göstəricilərə və digər tədris ədəbiyyatına olan tələbatını ödəmək məqsədilə laboratoriyada 2000-ə yaxın müxtəlif mənbəni əhatə edən fond yaradılmışdır. Burada toplanmış məlumat nəşrləri, biblioqrafik nəşrlər, kataloq və kartoteka sistemi müxtəlif növ biblioqrafik axtarış aparmağa imkan verir və tələbə, müəllim kollektivinə biblioqrafik xidmət göstərilir.

## KİTABXANA RESURSLARI VƏ İNFORMASİYA-AXTARIŞ SİSTEMLƏRİ KAFEDRASI

Kitabxanaçılıq fakültəsində professor və müəllim kadrların çoxalması, elmi dərəcəsi olan müəllimlərin artması yeni kafedraların açılması üçün şərait yaradırdı. Məhz buna görə də 1990-1991-ci tədris ilində fakültə rəhbərliyi rektorluğun qarşısında kitabxanaşünaslıq kafedrasının bazasında yeni «Kitabxana fondu və kataloqların təşkili» kafedrasının açılması məsələsini qaldırdı. Rektorluq bu məsələyə müsbət münasibətini bildirdi və universitetin böyük Elmi Şurası həmin kafedranın açılması haqqında qərar çıxardı. Beləliklə, kitabxanaşünaslıq kafedrası iki yerə bölündü. «Kitabxana kataloqları», «Kitabxana fondu» fənlərinin dərsləri və bu fənlərdən dərs deyən müəllimlər Kitabxanaşünaslıq kafedrasından ayrılıb yeni təşkil edilən kafedraya verildi. Bu cür bölgü ilk illərdən «Kitabxana fondu» və «Kitabxana kataloqları» fənlərinin tədrisinin yaxşılaşdırılmasına, göstərilən sahələr üzrə elmi-tədqiqat işlərinin canlanmasına səbəb oldu.

Kafedranın ilk müdiri vəzifəsinə kitabxanaşünaslıq kafedrasının dosenti, tarix elmləri namizədi mərhum Tacəddin Fərhad oğlu Quliyev seçildi. Vaxtilə kitabxanaşünaslıq kafedrasının ilk aspirantı olmuş T.F.Quliyev «Azərbaycan Həmkarlar İttifaqı kitabxanalarının tarixi» mövzusunda dissertasiya müdafiə etmiş, uzun illər həmin kafedrada işləmişdi. Kitabxanaşünaslıq kafedrasının 5 nəfər müəllimi yeni kafedraya verilmişdir. Mərhum dos. T.F.Quliyev və dos. E.M.Bədəlov, dos. A.Abbasova, dos. A.M.Əliyev, dos. M.M.Həsənov, baş müəllim S.M.Mustafayeva, baş müəllim K.M.Şıxzamanova, sonrakı illərdə laboratoriya müdiri Elmira Əhmədova, laborant Səfurə Hacıyeva, aspirant Seymur Şeydayev kafedraya müəllim qəbul edilmişlər. Lakin dərs yükünün azalması ilə əlaqədar olaraq sonuncu üç nəfər ixtisara düşmüşlər.

Yuxarıda adları qeyd edilən müəllimlərdən 4 nəfəri kitabxanaşünaslığın müxtəlif sahələri üzrə: «Azərbaycanda Həmkarlar İttifaqı kitabxanalarının tarixi» (dos. T.F.Quliyev); «Kənd əhalisinə kitabxana xidmətinin təşkili (1959-1970)» (dos. E.Bədəlov); «Naxçıvan MR-da kitabxana işinin tarixi (1920-1980-ci illər)» (dos.

A.Əliyev); «M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının inkişaf meylləri, fəaliyyətinin təkmilləşdirilməsi (1959-1985)» (dos. A.Abbasova) adlı mövzularda namizədlik dissertasiyaları müdafiə etmişlər.

Beləliklə, Hazırda kafedrada 9 nəfər professor-müəllim heyəti çalışır. Bunlardan 1 nəfər kafedra müdiri t.e.d. prof. X.İ.İsmayılov, 2 nəfəri dosent M.M.Həsənov, A.M.Əliyev, 1 nəfər baş müəllim S.M.Mustafayeva, 1 nəfər müəllim S.A.Xələfovadır. Kafedranın nəzdində ayrıca «Kitabxana fondu və kataloqlar» tədris laboratoriyası fəaliyyət göstərir. Bu laboratoriya 1987-ci ildə Kitabxanaşünaslıq kafedrasının yanında təşkil edilmiş, sonra isə yeni açılan kafedraya verilmişdir. Burada bir laboratoriya müdiri Hacıyeva Səfurə və 1 nəfər baş laborant Rzayeva Zahidə işləyir.

Kafedra təşkil edildikdən sonra tədris prosesinin təşkili daha da yaxşılaşdı, ixtisas kursları oxunmağa başladı, kafedranın elmi-tədqiqat işlərində irəliləyişlər oldu. «Kitabxana fondu», «Kataloqların təşkili» fənlərinin ayrı-ayrı bölmələri üzrə ciddi tədqiqatlar aparıldı. 2007/2008-ci tədris ilində kafedranın dərs yükü 2181 saat təşkil edir. Kafedranın müəllimləri tərəfindən son zamanlar bir sıra dərslik, dərs vəsaitləri və proqramlar hazırlanıb nəşr edilmişdir.

1996-cı ildə kafedranın müəllimləri tərəfindən hazırlanıb, prof. A.A.Xələfovun redaktorluğu ilə nəşr edilən «Kitabxana kataloqları» adlı dərs vəsaiti fakültənin tarixində mühüm hadisə sayıla bilər. Respublikamızda ilk dəfə çap olunmuş bu vəsaitdə kitabxana kataloqlarının ayrı-ayrı sahələri ətraflı təhlil edilib işıqlandırılmışdır. Dərs vəsaiti fakültənin tələbələri üçün böyük əhəmiyyətə malikdir. Bu cür vəsaitlərin nəşri respublikamızın kitabxanalarında fond və kataloqların təşkili prosesinə, onların müasir şəraitlə ayaqlaşmasına müsbət təsir göstərir.

Kafedranın müəllimləri tərəfindən ayrı-ayrı sahələr üzrə dərs vəsaitləri hazırlanmışdır. Dos. Tacəddin Quliyevin «Azərbaycanda kitabxanaçılıq işi» (Respublika Həmkarlar ittifaqı kitabxanalarının materialları əsasında: I və II hissələr) (1996, 2004-cü il); dos. Mayıl Həsənov və dos. Almaz Abbasovanın «Bədii və incəsənət əsərlərinin biblioqrafik təsviri qaydaları (1994-cü il); dos. T.Quliyev, dos. M.Həsənov və dos. A.Əliyevin «Təbiətşünaslığa dair ədəbiyyatın təsviri, təsnifləşdirilməsi (Metodik vəsait)» (1996-cı il); dos. T.Quliyev,

dos. A.Abbasova və baş müəllim Sənubər Mustafayevanın «Biblioqrafik təsvirin tərtibi qaydaları» (1996-cı il); baş müəllim S.Mustafayevanın «Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi» (2001-ci il); dos. M.Həsənovun «Kitabxana fondunun formalaşması və idarə edilməsi» (2004-cü il); baş müəllim S. Mustafayevanın «Biblioqrafik təsvirin tərtibi qaydaları (2-ci nəşri)» (2007-ci il) adlı dərs vəsaitləri çap edilmişdir.

Kafedranın müəllimləri tərəfindən qiyabi şöbənin tələbələri üçün bir sıra metodik vəsaitlər hazırlanmışdır. Dos. A.Əliyevin «Kitabxana fondu» fənni üzrə, baş müəllim S.Mustafayevanın «Kitabxana kataloqları», «Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi» fənləri üzrə metodik göstərişləri hazırlanmışdır.

Dərslik, dərs vəsaitləri və metodik göstərişlərlə birgə kafedrada tədris edilən fənlərin proqramları da hazırlanıb çap edilmişdir. Kafedranın müəllimləri tərəfindən «Kitabxana kataloqları» (1994), dos. T.Quliyev tərəfindən Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində (MKS) informasiya-axtarış sistemləri» (2001), «Kataloqlaşdırmanın müasir problemləri» (2003); dos. M. Həsənov tərəfindən «Kitabxana fondu» (2001), «Sənədlərin elmi sistemləşdirilməsi metodikası» (2003); dos. A.Əliyev tərəfindən «Sənədlərin predmetləşdirilməsi, predmet kataloqu və onun avtomatlaşdırılması (seçmə fənn)» (2001), «UOT: quruluşu və tətbiqi prinsipləri» (2003); baş müəllim S.Mustafayeva tərəfindən «Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi» (2001) fənləri üzrə bakalavr və magistratura pillələri üçün proqramlar çap edilmişdir.

Kafedranın müəllimi Sevda Xələfova «XX əsrin II yarısında Azərbaycanda əhaliyə kitabxana xidmətinin təşkili (1970-1980-ci illər)» (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi kütləvi kitabxanalarının materialları əsasında)» (Rəhbər prof. X.İ.İsmayılov) mövzusunda dissertasiya işi üzərində işləyib başa çatdırmış və «Azərbaycanda Dövlət Kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1970-1990)» adlı monoqrafiyası çap edilmişdir.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra bütün sahələrdə, o cümlədən təhsil sahəsində də geniş islahatlar həyata keçirilməyə başlandı. Bunun nəticəsi olaraq «Kitabxana fondu və kataloqların təşkili» kafedrasında mütəxəssis kadrlar hazırlamaq məqsədilə 1997-ci ildən Kitabxanaşünaslıq kafedrası üzrə qəbul olunan magistrlərdən

hər il 2 nəfər bu kafedraya verilir. Sevindirici haldır ki, 2007-ci ildən kafedra üçün ayrıca magistraturaya yer ayrılmışdır. Hazırda kafedranın 1 nəfər aspirantı (əyani) və 1 nəfər dissertantı var.

Kafedrada bu illər ərzində müxtəlif problemlər üzrə elmi-tədqiqat işləri aparılmışdır. 2001-2005-ci illərdə «Müasir dövrdə Azərbaycanda kitabxana fondlarının sənəd-informasiya təminatı və kataloqlaşdırmanın avtomatlaşdırılması» problemi işlənmiş, 2006-2010-cu illərdə isə «Azərbaycan Respublikasının müstəqilliyi şəraitində kitabxana fondlarının sənəd-informasiya təminatı və kataloqlaşdırmanın kompüterləşdirilməsi (tarixi, müasir vəziyyəti, nəzəri problemləri və inkişaf perspektivləri)» problemi ətrafında elmi tədqiqat işləri yazılır.

Elmi tədqiqatın probleminə uyğun olaraq hər bir müəllimin ayrıca tədqiqat obyekti vardır. Dos. M.Həsənov «Azərbaycan Respublikasının müstəqilliyi şəraitində Bakı şəhər kütləvi kitabxana fondlarının sənəd-informasiya təminatı və avtomatlaşdırılması», dos. A.Əliyev «Naxçıvan Muxtar Respublikasının kütləvi kitabxanalarının sənəd-informasiya fondlarının komplektləşdirilməsinin müasir vəziyyəti», baş müəllim S.Mustafayeva «Azərbaycan Respublikasının müstəqilliyi şəraitində Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasında sənədlərin kataloqlaşdırılması (tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri)» adlı elmi-tədqiqat işi üzərində çalışır.

Kafedra yaranan gündən onun eyni adlı «Kitabxana fondu və kataloqların təşkili» Tələbə Elmi Cəmiyyəti yaranmış və hal-hazırda fəaliyyət göstərir. Burada tələbələr müxtəlif maraqlı mövzularda məruzələrlə çıxış edir, öz elmi yaradıcılıqlarını təkmilləşdirirlər.

Beləliklə, kafedranın Tələbə Elmi Cəmiyyətində 170-dən çox elmi məruzə dinlənilmiş, 10-dan çox tələbəmiz Universitet və Respublika Elmi Konfranslarında çıxış etmiş və mükafatlandırılmışlar.

Kafedra yarandığı vaxtdan bu günə qədər 300-dən çox müxtəlif adda elmi-nəzəri və praktiki məqalələr və 85 çap vərəqi həcmində dərs vəsaiti, metodik göstərişlər və 8 adda (Bakalavr və magistratura pillələri üçün) fənnin proqramını çap etdirmişdir.

Hazırda kafedrada respublika kitabxanalarında avtomatlaşdırılmış kataloqlaşdırmanın inkişafına, elektron

kataloqunun yaradılması sahəsində elmi-tədqiqat işlərinin aparılmasına diqqət yetirilir. Bununla əlaqədar olaraq kafedranın adı müasir dövrün tələblərinə uyğun olaraq dəyişdirilmiş və «Kitabxana resursları və informasiya-axtarış sistemləri» adlandırılmışdır. Bu dəyişiklik təkcə kafedranın adında deyil, burada həyata keçirilən işlərin məzmununda da aşkar şəkildə özünü göstərməkdədir. Məsələn fənlərin tədrisi zamanı müasir dövrün tələblərinə cavab verən və cəmiyyətdə baş verən dəyişiklikləri özündə əks etdirən «Kitabxana-informasiya resurslarının idarə olunması», «Universal Onluq Təsnifat: Quruluşu və tətbiqi prinsipləri», «Kitabxana sənədlərinin mühafizəsi və bərpası», «Sənədlərin biblioqrafik təsviri, təsnifləşdirilməsi və nəşr standartları» kimi fənlərin tədris planına salınması buna misal ola bilər.

Bundan əlavə kafedranın müdiri prof. X.İ. İsmayılovun rəhbərliyi altında 1998-ci ildə yaradılan «Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosasiyası»nın beynəlxalq səviyyədə həyata keçirdiyi tədbirlər birbaşa kafedranın tədris problemləri ilə əlaqələndirilmişdir.

## KİTABŞÜNASLIQ VƏ NƏŞRİYYAT İŞİ KAFEDRASI

1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikasının Ali Soveti «Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı» qəbul etdi. Bu sənəd Azərbaycanın müstəqil və suveren Respublika kimi fəaliyyət göstərməsinin bünövrəsi oldu. Beləliklə də, Azərbaycan Respublikasının tanınmasına və dünya birliyində özünə layiqli yer tutmasına şərait yaratdı. Eyni zamanda Azərbaycanın müstəqilliyi ölkədə elmin, maarifin, mədəniyyətin, təhsilin geniş şəkildə inkişafını təmin etməyə başladı. Ölkəmizdə təhsilin inkişafı, yeni zəruri ixtisaslar üzrə kadrların hazırlanması ön plana çəkildi.

Təsadüfi deyildir ki, 1991/1992-ci tədris ilində Bakı Dövlət Universitetinin yanında yeni bir ixtisas üzrə kadrlar hazırlamaq üçün tələbə qəbuluna başlanıldı. Bu ixtisas üzrə

tələbə qəbulunun təşkilində rektorluğun və fakültəmizin dekanı, prof. A.A.Xələfovun xidmətini də, qeyd etmək lazımdır. Belə ki, fakültənin dekanı prof. A.A.Xələfov rektorluq qarşısında kitabşünaslıq və nəşriyyat işi ixtisası üzrə kadrların hazırlanması ilə bağlı məsələ qaldırdı.

Rektorluğun bu işə xüsusi səy göstərməsi nəticəsində prof. B.V.Allahverdiyev Moskva şəhərinə ezam olundu və Kitabşünaslıq ixtisası üzrə tədris planı Moskva şəhərindən gətirildi. Fakültənin dekanı prof. A.A.Xələfov rektorluğa və Təhsil Nazirliyinə müraciət edərək, kitabşünaslıq ixtisası üzrə tələbə qəbulunun Universitetdə aparılmasının zəruri olduğunu əsaslandırdı.

Nəticədə, Azərbaycan Respublikasının Nazirlər Sovetinin xüsusi qərarı ilə 1991/1992-ci tədris ilindən bu yeni ixtisas üzrə Bakı Dövlət Universitetində tələbə qəbuluna başlanıldı. Kitabşünaslıq ixtisası üzrə yüksək səviyyəli kadrların hazırlanması, elmi-tədqiqat işlərinin aparılması «Kitabşünaslıq və nəşriyyat işi» kafedrasının təşkilini zərurətə çevirdi. Bu kafedra kitabın nəşri, təbliği və yayılması ilə məşğul olan kitabşünaslıq ixtisası üzrə kadrların hazırlanmasının bünövrəsi oldu. Kitabşünaslıq ixtisası onun inkişaf etdirilməsi üçün əlaqədar kafedranın yaradılmasını zərurətə çevirdi.

Beləliklə də, 1993-cü ilin mart ayında Bakı Dövlət Universiteti nəzdində ilk dəfə olaraq, «Kitabşünaslıq və kitab ticarətinin təşkili» kafedrası (1997-1998-ci ildən isə «Kitabşünaslıq və nəşriyyat işi» kafedrası adlanır.) fəaliyyətə başladı. Kafedra fəaliyyətə başlayanda kafedranın aşağıdakı əməkdaşları: kafedra müdiri, tarix elmləri doktoru, professor Allahverdiyev Bayram Vəli oğlu, tarix elmləri namizədi, dosent Həsənov Hacı Balay oğlu, filologiya elmləri namizədi Süleymanov Rasim İmaməli oğlu, baş müəllim Əsədullayev Akif Məhəmməd oğlu və kafedranın laborantı Quliyeva Sevda Feyruz qızı olmuşlar.

1995-1996-cı illərdən kafedranın professor və müəllim heyəti yeni kadrlarla daha da möhkəmləndirildi. Məmmədov Mehmanəli Əkbər oğlu və Həmidov Ramiz Hacıbala oğlu

kafedrada baş müəllim vəzifələrinə təyin olundular. Bu dövrdə eyni zamanda filologiya elmləri doktoru, professor Vəliyev İsmayıl Ömər oğlu və Mehrəliyeva Nailə Müzəffər qızı kafedranın əməkdaşları sırasına daxil olurlar.

Kafedranın bu cür müəllim kontingenti ilə təmin olunması kafedranın kitabşünaslıq və nəşriyyat işi, redaktə-etmə ixtisasları üzrə kadrların hazırlanmasına və tədris işinin yaxşı təşkilinə, elmi-tədqiqat fəaliyyətinin genişlənməsinə, proqram, dərslik, dərs vəsaitlərinin yazılmasına və çapdan buraxılmasına əsaslı təsir göstərdi.

Bir sıra yeni ixtisas fənləri üzrə proqramlar hazırlandı. Məsələn, Kitabxanaşünaslıq və ümumi kitab tarixi (Proqram / Tərtib edəni prof. B.V.Allahverdiyev) 1995; Kitabçılıq işinin tarixi (Proqram / Tərtib edəni dos. H.B.Həsənov) 1995 və s.

1996/1997-ci tədris ilindən kafedranın əməkdaşları, dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasına xüsusi diqqət yetirdilər. Prof. B.V.Allahverdiyevin 1996-cı ildə «Müasir mərhələdə kitab ticarətinin təşkili» adlı iri həcmli monoqrafiyası çap olundu. Kafedranın professor və müəllim heyəti kafedrada tədris işi aparmaqla bərabər, kitabşünaslığın, nəşriyyat işinin, kitab tarixinin, redaktəetmənin aktual problemləri üzrə çox qiymətli elmi əsərlər, məqalələr hazırlayıb çap etdirdilər. Kitabşünaslıq və nəşriyyat işi kafedrasının əməkdaşları kitabşünaslığın tarixi, nəzəriyyəsi, metodiki məsələləri, kitab nəşri, kitab ticarəti, tərcümə ədəbiyyatının nəşri, xüsusilə rus klassik yazıçılarının əsərlərinin nəşri, kitabın təbliği və yayılması və s. problemlər üzrə tədqiqat aparmış və çox qiymətli əsərlər, monoqrafiyalar, elmi məqaləlr və s. dərc etdirmişlər.

2000-ci ildən kafedranın professor və müəllim heyətinin elmi-tədqiqat işləri daha da genişləndi. Kafedranın elmi-tədqiqat fəaliyyətində ayrı-ayrı nəşriyyatların iş təcrübələrinin, respublikada kitab ticarətinin öyrənilib ümumiləşdirilməsinə, elmi-metodiki nəticələr çıxarmasına, nəşriyyat sistemində mövcud olan problemlərin öyrənilməsi və onların aradan qaldırılması yolları üzrə elmi-tədqiqat işlərində tövsiyə və təkliflərin verilməsi, bütövlükdə kafedranın respublikamızda

nəşriyyat sisteminin inkişaf etdirilməsinə, kitab nəşri işinin təkmilləşdirilməsinə, kitabın yayılmasına göstərdiyi elmi-metodiki köməyə parlaq sübutdur. Profesor B.V.Allahverdiyevin çapdan buraxılmış «Müasir mərhələdə kitab ticarətinin təşkili» adlı monoqrafiyası bu mənada xüsusilə əhəmiyyətlidir. Bu dövrdə eyni zamanda Prof. İ.Ö.Vəliyevin, prof. B.V.Allahverdiyevin bir sıra qiymətli dərslikləri, dərs vəsaitləri, metodik göstərişləri də çapdan buraxıldı:

2000-ci illərdə «Kitabşünaslıq və nəşriyyat işi» kafedrasının üç müəllimi dissertasiya müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi almışlar. Bunlar Mehrəliyeva Nailə Müzəffər qızı «Yeniyetmələrin mənəvi tərbiyəsində məktəb kitabxanalarının yeri» mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi, Musalı Vüsalə Azər qızı «XV-XVII əsrlər türk təzkirələrinin strukturu və spesifikası» mövzusunda dissertasiya müdafiə edərək filologiya elmlər namizədi, Quliyeva Şəhla Tahir qızı «Məzahir Daşqının poeziyası» mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışlar. «Kitabşünaslıq və nəşriyyat işi» kafedrasının əməkdaşlarının bu cür yeni elmlər namizədləri və doktorlarla zənginləşməsi kitabşünaslığın, nəşriyyat işinin, kitab nəşrinin, kitab tarixinin və redaktəetmənin tarixi, nəzəri və təcrübi məsələlərinin öyrənilməsinə, müxtəlif səpkili elmi-tədqiqat əsərlərinin meydana gəlməsinə və nəşr edilməsinə güclü təsir göstərmişdi.

Təsadüfi deyildir ki, «Kitabşünaslıq və nəşriyyat işi» kafedrası yaranandan indiyə qədər kafedranın əməkdaşlarının, yəni professor və müəllim heyətinin, laborant və işçilərin 200-dən çox elmi məqaləsi respublikamızın və xarici ölkələrin dövri mətbuat səhifələrində, yəni nüfuzlu qəzetlərdə və elmi jurnallarda dərc edilmişdir.

Kitabşünaslıq və nəşriyyat işi kafedrasının elmi fəaliyyətində elmi-nəzəri seminarların təşkili və aparılması xüsusi əhəmiyyət kəsb edir. Kafedrada 1994-cü ildə kitabşünaslıq, kitabın nəşri, kitab yayılması və s. problemlər üzrə elmi-nəzəri seminarlar aparılmışdır. Bu elmi seminarlar kitab tarixinin, kitab tərtibatının, kitab nəşrinin aktual məsələlərinə həsr

edilib. Məsələn, professor B.V.Allahverdiyevin «Azərbaycan kitabının nəşri», «İlk Azərbaycan çap kitabları» haqqındakı elmi məruzələri xüsusilə əhəmiyyətli olmuşdur. Kafedranın baş müəllimi Ramiz Hacıbala oğlu Həmidovun «Azərbaycanda kitabın təbliği və yayılması» mövzusunda etdiyi məruzələr həm elmi, həm də təcrübi cəhətdən olduqca əhəmiyyətli olmuşdur.

1997-1998-ci illərdən Kitabşünaslıq və nəşriyyat işi kafedrasında elmi-nəzəri seminarların mövzu dairəsi daha da genişləndirilmiş, təşkili təkmilləşdirilmiş və müzakirələr maraqlı, əhəmiyyətli xarakter almışdır. Kafedranın elmi-nəzəri seminarlarında professor İ.Ö.Vəliyevin «Kitab nəşri və redaktənin nəzəri məsələləri»nə dair etdiyi məruzələr öz aktuallığı və yeniliyi ilə daha çox diqqəti cəlb edirdi.

2000-ci illərdə kafedraya yeni əməkdaşların cəlb edilməsi, elmi dərəcəli müəllimlərin artması, elmi-nəzəri seminarın daha mütəşəkkil və sistemli şəkildə təşkilinə imkan vermişdir. Kafedranın elmi seminarlarında kafedranın dissertantlarının iştirakı da təşkil edilmişdir. Dissertantlar apardıqları öz elmi tədqiqat mövzuları üzrə əldə etdikləri yenilikləri elmi-nəzəri seminarlarda əməkdaşların nəzərinə çatdırırlar.

Bu cür seminarlar onların elmi-tədqiqat işlərinin daha ətraflı şəkildə aparılmasına və elmi istiqamətlərin düzgün müəyyənləşdirilməsində böyük əhəmiyyət kəsb edir.

Hər il kafedrada kitabşünaslığın, kitab nəşrinin, kitab tarixinin, redaktə işinin, kitab tərtibatının aktual mövzuları üzrə 4-5 adda məruzə dinlənilir.

«Kitabşünaslıq və nəşriyyat işi» kafedrasının əməkdaşlarının alimlik dərəcələri almaları tədris edilən fənlərin elmi səviyyəsinin, məzmununun daha ətraflı, əsaslı şəkildə öyrənilməsinə və tələbələrə çatdırılmasına çox müsbət təsir göstərmişdir. Kafedranın yeni elmlər namizədləri, professor və müəllim heyəti ilə möhkəmlənməsi, bakalavr pilləsində və magistr pilləsində tədris edilən bütün fənlər üçün demək olar ki, məzmunlu, elmi səviyyəsi yüksək olan, müasir dövrün tələblərinə cavab verən proqramların və metodik göstərişlərin hazırlanmasına və çapdan buraxılmasına imkan vermişdir.

«Kitabşünaslıq və nəşriyyat işi» kafedrası dissertantların, aspirantların hazırlanmasına da öz fəaliyyətlərində geniş yer ayırmışdır. Kafedranın dissertantı Quliyeva Sevda Feyruz qızının (elmi rəhbəri: prof. B.V.Allahverdiyev) «Azərbaycan soraq-məlumat ədəbiyyatı: yaranması, müasir vəziyyəti və inkişaf perspektivləri» mövzusunda yazdığı dissertasiya işi geniş şəkildə müzakirə edilmiş və çox əhəmiyyətli elmi-tədqiqat işi kimi müdafiəyə buraxılmışdır.

Kafedranın dissertantı Hüseynova Mədinə İxtiyar qızı prof. B.V.Allahverdiyevin rəhbərliyi ilə «Azərbaycanda kitabşünaslıq: yaranması, müasir vəziyyəti və inkişaf perspektivləri» mövzusunda dissertasiya işini başa çatdırmışdır. M.İ.Hüseynovanın dissertasiya işi kafedrada müzakirə olunmuş və müdafiəyə buraxılmışdır.

Hazırda tarix elmləri doktoru, professor B.V.Allahverdiyevin rəhbərliyi ilə kafedranın dissertantları Ələsgərova İradə Hacıbala qızı «Azərbaycan kitabının bədii tərtibatı məsələləri» mövzusunda, Qasımova İnci Əlövsət qızı «Azərbaycan uşaq kitabının nəşri: inkişafı və müasir vəziyyəti (1940-2000-ci illər)» və Bağırova Tahirə Ələkbər qızı «Azərbaycan klassik yazıçılarının əsərlərinin nəşri məsələləri (M.Ə.Sabir və H.Cavidin əsərlərinin nəşri əsasında)» mövzusunda dissertasiya işlərini müvəffəqiyyətlə işləyirlər.

Kafedranın fəaliyyətində magistrlərin elmi iş yazmalarına və müvəffəqiyyətlə dissertasiya müdafiə etmələrinə də diqqət yetirilir. Magistrlərin kitabşünaslıq, nəşriyyat işi və redaktəetmə məsələlərinə dair qiymətli elmi əsərləri dərc edilir.

Hazırda «Kitabşünaslıq və nəşriyyat işi» kafedrasının professor və müəllim heyəti müstəqillik şəraitinə uyğun olaraq, tədris, elmi tədqiqat, elmi kadr hazırlamaq sahəsindəki fəaliyyətini daha da genişləndirmək və inkişaf etdirmək əzmindədir.

## FAKÜLTƏNİN KADR HAZIRLIĞI SAHƏSİNDƏKİ FƏALİYYƏTİ

60 il müddətində Kitabxanaçılıq-informasiya fakültəsi beş mindən çox yüksək ixtisaslı kadr hazırlamışdır. Belə ki, 1952-1961-ci illər ərzində fakültəni əyani və qiyabi şöbə üzrə 250 nəfərə yaxın kadr bitirmişdir. Bunlardan 200-ü əyani şöbənin, 50-si isə qiyabi şöbənin payına düşür. Müstəqil Kitabxanaçılıq fakültəsi yaranandan yəni, 1962 - 1970-ci ilə kimi fakültənin bitirən məzunların sayı 450 nəfər olmuşdur. Onların təhsilin formalarına görə aşağıdakı kimi olmuşdur: Əyani şöbədə 217 nəfər, qiyabi şöbədə 202 nəfər, axşam şöbəsində 31 nəfər. Növbəti onillikdə, yəni 1971-1980-ci illərdə fakültənin məzunlarının sayı 800-ü keçmişdir. Bundan 50%-dən çoxu əyani şöbənin payına düşmüşdür. Axşam şöbəsində qəbulun artması məzunların sayına də təsir göstərmişdir. Həmin dövrdə 200-dən çox axşam şöbəsində kadr hazırlanmışdır.

Kitabxanaçılıq-informasiya fakültəsinin inkişafında mühüm mərhələlərdən biri XX əsrin 80-ci illəri hesab edilir. Məhz bu dövrdə fakültədə kadr hazırlığı əvvəlki onilliklə müqayisədə 2 dəfədən çox artaraq 2000-dən çox olmuşdur. Bu dövrdə əyani və qiyabi şöbələrdə məzun buraxılışı demək olar ki, say etibarilə barabər olmuşdur.

Müstəqildlik illərində Kitabxanaçılıq-informasiya fakültəsinin kadr hazırlığı sahəsində fəaliyyəti həm kəmiyyət, həm də keyfiyyət cəhətdən yaxşılaşmışdır. Yalnız 1991-1996 – cı illərdə fakültənin 1200 dən çox məzunu olmuşdur. Fakültənin maddi-texniki bazasının və elmi-pedaqoji kadr təminatı sisteminin yaxşılaşdırılması 1997-ci ildə çoxpilləli təhsil sisteminə keçidin yeni mərhələsinin başlanğıcı olmuşdur. Fakültədə ayrı-ayrı ixtisaslar üzrə magistr pilləsi üzrə kadr hazırlığına başlanmışdır. Son 10 ildə Kitabxanaçılıq-informasiya fakültəsində bütün pillələr üzrə 1300-ə yaxın kadr hazırlanmışdır. Bunlar təhsilin əyani və qiyabi formasında həyata keçirilmişdir.

Hazırda fakültədə bakalavr pilləsi üzrə 430 tələbə təhsil alır. Onlardan 279 nəfəri əyani, 151 nəfəri qiyabi şöbəsinin tələbələridir. Magistr pilləsində 40 nəfər magistrant təhsil alır. Onlardan 23 nəfəri əyani, 17 nəfəri qiyabi təhsil alır. Fakültədə 3 aspirant və 8 dissertant elmi fəaliyyətini davam etdirir. Fakültədə tədrisin düzgün və elmi formada təşkilində fakültə metodşurası və fakültə elmi şurası fəaliyyət göstərir.

Bakalavr pilləsi üzrə HS 151700 kitabxanaşünaslıq-biblioqrafiyaşünaslıq, HS 061000 kitabşünaslıq istiqamətində, magistratura üzrə HSM 150017 kitabxanaşünaslıq, HSM 150020 biblioqrafiyaşünaslıq, HSM 150023 kitabxana fondlarının formalaşması və istifadəsi, HSM 060005 nəşriyyat işi və redaktəetmə ixtisası üzrə kadr hazırlanır.

Respublikamızın müstəqilliyi şəraitində təhsil sahəsində aparılan islahatların əsas məqsədi müstəqil Azərbaycanın təhsil sisteminin dünya standartları səviyyəsinə qaldırılması məsələsini həll etməkdir. Bu mühüm işdə Fakültə Elmi Şurası kollektivin əsas istinad nöqtəsi kimi fəaliyyət göstərir, onun işini istiqamətləndirir.

Kitabxanaçılıq-informasiya fakültəsində yüksək ixtisaslı kadrların hazırlanmasında, elmi-tədqiqat və metodiki işlərin aparılmasında, pedaqoji kadrların seçilib, yerləşdirilməsində 1962-ci ildən yaradılan Fakültə Elmi Şurasının rolu böyükdür.

Kitabxanaçılıq fakültəsinin Elmi Şurası fəaliyyət göstərdiyi 46 il müddətində şərəfli bir yol keçmiş, fakültənin tarixində həlledici rol oynamışdır. Fakültədə elə bir tədris, elm və tərbiyə işi olmamışdır ki, Şuranın müzakirəsindən kənara qalsın. Şura fakültə tədris planının, fənn proqramlarının, metodik vəsaitlərin, ixtisas kursu, seçmə kurs və ixtisaslaşma proqramlarının, istehsalat təcrübəsi proqramlarının müzakirə və təsdiqində, elmi-tədqiqat işlərinin istiqamətinin müəyyənləşdirilməsində, dissertasiya işi və diplom işi mövzularının təsdiqində fakültənin ali orqanı kimi mühüm işlər görür. Həmçinin Şura fakültədə təlim-tərbiyə işlərinin məqsədyönlü aparılmasına, tədris prosesinin keyfiyyətinin daha da yüksəldilməsinə istiqamət verir. Dekan və fakültəyə qəbul edilən bütün müəllimlər Şurada seçilməli olduqlarından professor-

müəllim heyətinin komplektləşdirilməsində, seçilib yerləşdirilməsində Şuranın rolu olduqca böyükdür.

Kitabxanaçılıq-informasiya fakültəsinin Elmi Şurası respublikamızda kitabxanaşünaslıq və biblioqrafiyaya və kitabşünaslığa dair yeganə elmi mərkəz olduğundan burada tez-tez kitabxana işinin inkişafına, əhaliyə kitabxana xidmətinin aktual problemlərinə dair məsələlər müzakirə edilir, məruzələr dinlənilir, elmi tövsiyələr hazırlanır.

60-70-ci illərdə elmi şuranın fəaliyyətində əsas yerlərdən birini müstəqil kitabxanaçılıq fakültəsi üçün fərdi tədris planının təsdiqi tutmuşdur. Belə plan 70, 80 və 90-cı illərdə üç dəfə tərtib və təsdiq edilmişdir. Bunlar o zaman ittifaq miqyasında keyfiyyətli planlar kimi qiymətləndirilmişdir. 90-cı illərdə fakültənin Elmi Şurası Azərbaycan Respublikasının Təhsil Qanununa əsasən çoxpilləli təhsil sitseminə keçməklə əlaqədar iki dəfə «Bakalavr» tədris planını və son illərdə isə «Magistr» tədris planını müzakirə və təsdiq etmişdir. Elmi Şura son dövrlərdə yeni Təhsil Qanununa uyğun olaraq bütün fənn proqramlarının təzədən işlənib hazırlanmış variantlarını müzakirə və təsdiq etmişdir.

Məlum olduğu kimi yüksək ixtisaslı kadrların hazırlığının strategiyası hesab edilən tədris planlarının hazırlanması və tətbiqi dövrün tələblərinə, elmi-texniki tərəqqinin səviyyəsinə və ixtisasın gələcək perspektivlərinə əsaslanır. Kitabxanaçılıq-informasiya fakültəsi mövcud olduğu 60 il ərzində 9 tədris planından istifadə edilmişdir. İlk tədris planı 1947-ci ildə tərtib edilmişdir. Bu plan keçmiş sovetlər birliyində ilk universitet tədris planı idi. 1955-ci ildə kitabxanaşünas-biblioqraf ixtisası üzrə ilk universitet tədris planı təsdiq edildi. 1970-cı ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin yeni tədris planı təsdiq edildi. 1984-cü ildə ilk dəfə olaraq ölkə üzrə Kitabxanaçılıq fakültəsinin fərdi tədris planı təsdiq edildi. Azərbaycanın müstəqilliyi illərində Təhsil Qanununun tələblərinə uyğun olaraq, bakalavr pilləsi üzrə tədris planı işlənib hazırlandı. 1996-ci ildən Təhsil Nazirliyi tərəfindən təsdiq edilən ixtisas standartı meydana gəldi. Hal-hazırda Boloniya prosesi ilə əlaqədar tədris planları

yenidən işlənmişdir və bu tədris planında dünya kitabxanaçılıq təhsilinin ən mühüm nailiyyətləri öz əksini tapmışdır.

Kitabxanaçılıq-informasiya fakültəsi Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq təhsili üzrə elmi-tədqiqat mərkəzi kimi formalaşmışdır. Fakültədə elmi-tədqiqat işləri istiqamətində həyata keçirilir:

1. Namizədlik və doktorluq dissertasiya işlərinin hazırlanması və müdafiəsi;
2. Monoqrafiyaların çap edilməsi;
3. Müvafiq sahələr üzrə tədris-metodik nəşrlərin hazırlanması və çap edilməsi;
4. Elmi və elmi-kütləvi xarakterli məqalələrin yazılması və dərc edilməsi.

Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq üzrə elmi fikrin ilk mərkəzi 1947-ci ildən yaradılmış «Kitabxanaşünaslıq və biblioqrafiya » kafedrası olmuşdur. Bu proses əvvəlcə tədris materiallarının hazırlanması ilə başlamış, 60-70-ci illərdən ciddi tədqiqatlarla davam etmişdir. Qeyd olunan sahələrin müstəqil elmi istiqamət kimi formalaşması Kitabxanaçılıq fakültəsinin ilk ali ixtisas təhsilli müəllimlərinin fədakar elmi əməyinin nəticəsində mümkün olmuşdur.

Aparılan araşdırmalar göstərir ki, 60 ildə fakültənin əməkdaşlarının 2500 –dən çox elmi əsəri çap olunmuşdur. Kafedralar üzrə aparıcı mövqe Kitabxanaşünaslıq kafedrasına məxsusdur. Belə ki, bəhs edilən dövrdə Kitabxanaşünaslıq kafedrasının əməkdaşlarının 1100-dən çox müxtəlif xarakterli elmi işi çap olunmuşdur. Biblioqrafiyaşünaslıq kafedrası üzrə əməkdaşların 500-ə yaxın əsərinin çap olunduğu müəyən olunmuşdur. Kitabşünaslıq və nəşriyyat işi kafedrasında professor-müəllim heyətinin 400-ə yaxın əsəri işıq üzü görmüşdür. Kitabxana resursları və informasiya-axtarış resursları kafedrasında isə bu rəqəm 400-ü keçmişdir.

Kitabxanaşünaslıq kafedrası üzrə aparılan tədqiqatların nəticəsi olaraq qədim dövrdən zəmanəmizə qədər Azərbaycanda kitabxana işinin tarixi kompleks şəkildə öyrənilmişdir. Eyni zamanda ayrı-ayrı sahəvi kitabxanaların

yaranması, inkişaf mərhələləri, müxtəlif regionlarda kitabxana işinin tarixi və təşkili məsələləri, müxtəlif kitabxana proseslərinin təşəkkülü və inkişaf qanunauyğunluqları, müstəqil tədqiqat işlərinin obyektinə çevrilmişdir. Azərbaycanda kitabxanaşünaslıq üzrə elmi-tədqiqat işlərinin təşkili və istiqamətləndirilməsi sahəsində Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor A.Xələfovun xüsusi xidmətləri olmuşdur. Onun rəhbərliyi ilə son 50 ildə Azərbaycan kitabxanaşünaslıq məktəbi formalaşmışdır. Yüksək ixtisaslı kitabxanaşünas alimlər korpusunun formalaşması da məhz kitabxanaşünaslıq kafedrasının fəaliyyəti ilə bilavasitə əlaqədar olmuşdur. Bu tədqiqatların nəticəsində professor A.Xələfovun 250-ə yaxın elmi əsəri çap olunmuşdur. Kafedranın dosentlərindən Ə. Rüstəmovun, K.Aslanın, M.Məmmədovun E.Əhmədovun elmi-tədqiqat fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Nəticə etibarilə Azərbaycanda Həmkarlar İttifaqı Kitabxanalarının, Naxçıvan Muxtar Respublikasında kitabxana işinin, Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin, Partiya kitabxanalarının, kitabxanaların metodik-təminat sisteminin, kənd əhalisinə kitabxana xidmətinin, neft sənayesi üzrə mütəxəssislərə kitabxana –informasiya xidmətinin, uşaq və məktəb kitabxanalarının, kitabxanalararası abonomentin, ayrı-ayrı kitabxanaların tarixinin və müasir vəziyyətinin tədqiqi məhz bu kafedranın elmi-tədqiqat fəaliyyətinin nəticəsi olaraq həyata keçirilmişdir.

Biblioqrafiyaşünaslıq üzrə elmi fikrin mərkəzi kimi Kitabxanaçılıq-informasiya fakültəsinin müvafiq kafedrası xüsusi mövqeyə malikdir. Kafedranın əməkdaşlarının elmi-tədqiqat istiqaməti Azərbaycan biblioqrafiyasının tarixinin, təşkili və idarə olunmasının elmi əsaslarının müəyyənləşdirilməsi, mövcud biblioqrafik resurslardan səmərəli istifadənin optimallaşdırılmasına təsir edən konsepsiyanın hazırlanmasından ibarətdir. Bu istiqamətdə aparılan tədqiqatların bir qismi Azərbaycan biblioqrafiyasının tarixinin köklü şəkildə öyrənilməsi ilə bağlıdır. Tədqiqatların digər istiqaməti ayrı-ayrı kitabxana və informasiya orqanlarının biblioqrafik

fəaliyyətinin öyrənilməsi və ümumiləşdirilməsi ilə əlaqədardır. Son illərdə Biblioqrafiyaşünaslıq kafedrasında aparılan tədqiqatların ayrıca istiqaməti kimi biblioqrafik resursun yerləşməsi və ondan səmərəli istifadə məsələlərinin tədqiqidir. Kafedranın professor-müəllim heyətinin yaradıcılığının kəmiyyət xarakteristikası baxımından təhlili göstərir ki, Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyev, görkəmli biblioqraf-alim Əşrəf Xələfov, dosent N.İsmayılov və başqaları daha səmərəli fəaliyyət göstərmişdir. Professor Zöhrab Əliyevin yaradıcılığında mərkəzi mövzu Azərbaycan biblioqrafiyasının tarixinin tədqiq edilməsidir. O, bu istiqamətdə dissertasiya müdafiə etmiş, bir neçə dərslik və dərs vəsaiti, onlarla elmi məqalə çap etdirmişdir. Dosent Əşrəf Xələfov isə Azərbaycan ədəbi biblioqrafiyasının, onun ilk qaynaqları olan təzkirələrin biblioqrafik informasiya mənbəyi kimi tarixini və mahiyyətini tədqiq edən nüfuzlu alimdir. Dosent N.İsmayılovun elmi-tədqiqat fəaliyyəti Azərbaycanın kitabxana-biblioqrafiya resurslarının təşəkkülü, inkişafı, yerləşməsinin müasir vəziyyəti və ondan səmərəli istifadə edilməsi yolları ilə bağlıdır.

Kitabxanaçılıq-informasiya fakültəsinin aparıcı kafedralarından biri də «Kitabxana resursları və informasiya-axtarış sistemləri» kafedrasıdır. Kafedranın elmi-tədqiqat istiqaməti kitabxanaların informasiya resurslarının tədqiqi və ondan istifadənin səmərəli yollarının müəyyən edilməsidir. Bu istiqamətdə tədqiqatların təşkili sahəsində fakültənin dekanı, t. e. d., professor Xəlil İsmayılovun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Onun bu istiqamətdə 100-dən çox elmi əsəri işıq üzü görmüşdür. Bu əsərlər monoqrafiya, dərslik, dərs vəsaiti və elmi məqalələr şəklində nəşr olunmuşdur.

Kitabxanaçılıq-informasiya fakültəsinin kafedralarından biri də «Kitabşünaslıq və nəşriyyat işi» kafedrasıdır. Kafedranın elmi-tədqiqat istiqaməti Azərbaycan kitab mədəniyyətinin tarixi və müasir vəziyyətinin öyrənilməsi, nəşriyyat işinin təşkili məsələlərinin tədqiq edilməsidir. Bu istiqamətdə aparılan tədqiqatlarda professor Bayram Allahverdiyevin fəaliyyyti daha çox diqqəti cəlb edir. Onun yaradıcılığında

Orta əsr Azərbaycan kitabının xüsusiyyətləri, Azərbaycan texniki kitabının tarixi, dünya kitabçılıq işinin tarixi və s. məsələlər mühüm yer tutur. Onun 100-dən çox müxtəlif xarakterli əsəri çap olunmuşdur. Kafedranın əməkdaşlarından professor İ.Vəliyev, dosent N.Mehrəliyeva, elmlər namizədi Ş.Quliyeva, elmlər namizədi V.Musalı və b. daha çox fərqlənirlər.

Kitabxanaçılıq-informasiya fakültəsində tələbələrin elmi-tədqiqat vərdişlərinin formalaşmasında Tələbə Elmi Cəmiyyəti mühüm rol oynayır.

Fakültənin TEC-i özündə dörd dərnəyi birləşdirir: «Kitabxanaşünaslıq», «Biblioqrafiyaşünaslıq», «Kitabşünaslıq» və «Kitabxana resursları və informasiya-axtarış sistemləri».

Fakültədə TEC-in 60 illik fəaliyyətinin təcrübəsi göstərir ki, yüksək ixtisaslı kadr korpusunun hazırlanmasında bu qurum çox mühüm rol oynayır.

Hələ 1949-cu ildə Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının nəzdində ilk dərnək «Kitabxanaşünaslıq və biblioqrafiya» dərnəyi yaradılmışdır. 1962-ci ildə müstəqil Kitabxanaçılıq fakültəsi yarananda məhz həmin dərnəyin bazasında Tələbə Elmi Cəmiyyəti təşkil olunmuşdur. 60-cı illərin ikinci yarısından etibarən fakültə Tələbə Elmi Cəmiyyətinin beynəlxalq əlaqələri yaranmağa başlamış və son-rakı dövrlərdə bu proses daha dinamik xarakter almışdır. Fakültə TEC-i Moskva, Sankt-Peterburq, Kiyev, Daşkənd Mədəniyyət İnstitutları ilə Vilnüs Dövlət Universitetinin, Tbilisi Pedaqoji İnstitutunun müvafiq şöbələri ilə əlaqədar bu dövrlərdə yaranmış, fakültənin tələbələri sonrakı illərdə həmin institut və universitetlərin təşkil etdiyi Elmi Konfranslarda müvəffəqiyyətlə çıxış etmiş, BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin təşkil etdiyi konfranslarda həmin institutların tələbələri fəal iştirak etmişlər. Ayrı-ayrı dövrlərdə fakültənin tələbələrindən M.Novruzov, R. Süleymanov, N.İsmayılov, K.Tahirov və başqaları belə tədbirlərdə mühüm nailiyyətlər əldə etmişlər.

1982-ci ildə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin təşkil etdiyi Beynəlxalq Konfransda fakültənin

tələbələri ilə yanaşı, qeyd olunan Universitet və institutların tələbələri də yaxından iştirak etmişdir.

Fakültədə TEC xətti ilə tələbələr həm də hələ 70-ci illərdən ənənə halını almış Respublika Tələbə Elmi Konfransında da fəallıq göstərmiş və çox mühüm göstəricilərə imza atmışlar.

Azərbaycanın müstəqilliyi illərində fakültədə TEC-in fəaliyyəti yeni dövrün tələblərinə uyğun yenidən qurulmuş, dərnəklərdə məruzələrin müzakirəsi ilə yanaşı, elmi disputlar, olimpiadalar və müsabiqələrin keçirilməsi və s. üsullardan geniş istifadə edilir. Hal-hazırda bakalavr və magistr pilləsi üzrə TEC-in 160-dan çox üzvü vardır.

Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi beynəlxalq əlaqələr sahəsində zəngin təcrübəyə malikdir. Fakültə fəaliyyətə başladığı ilk vaxtlardan etibarən keçmiş SSRİ-nin nüfuzlu elm, təhsil mərkəzləri ilə əlaqələr yaratmağa başlamış və bu əlaqələr tədrisin keyfiyyətini və mütəxəssis hazırlığınının səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərmişdir. Fakültənin Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Sankt-Peterburq Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Daşkənd Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Vilnyus Dövlət Universiteti, Tbilisi Dövlət Pedaqoji İnstitunun Kitabxanaçılıq fakültələri ilə sıx elmi əlaqələri və əməkdaşlığı olmuşdur. Bu elmi əlaqələrin yaradılmasında, inkişafında böyük rolu və müstəsna xidmətləri olmuş alimlər arasında professor Abuzər Xələfovun, professor Zöhrab Əliyevin, professor Xəlil İsmayılovun, professor Bayram Allahverdiyevin, dosent Rasim Kazımovun və başqalarının xüsusi rolu olmuşdur.

Kitabxanaçılıq-informasiya fakültəsi respublika daxilində də müvafiq elm, təhsil və mədəniyyət ocaqları ilə sıx elmi əməkdaşlıq şəraitində fəaliyyət göstərmişdir. Bu baxımdan fakültənin M.F.Axundov adına Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Prezident Kitabxanası və digər respublika əhəmiyyətli kitabxanalarla əlaqələri daim inkişaf etmişdir. Fakültənin bu əlaqələri , xüsusən də respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra daha da intensivləş-

mişdir.

Fakültənin bu sahədə göstərdiyi fəaliyyətdən bəhs edərkən 1999-cu ildə fakültənin dekanı prof. X.İ.İsmayılov, fakültənin bir sıra əməkdaşları və respublikanın kitabxana ictimaiyyətinin nümayəndələri ilə birgə təsis edilmiş Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının (AKİİA) böyük rolu olmuşdur.

Təsis olunduğu vaxtdan dərhal sonra AKİİA dünyanın bir çox ölkələrində fəaliyyət göstərən kitabxana təşkilatları, beynəlxalq təşkilatlar ilə sıx işgüzar əlaqələr qurmağa başlamışdır. Bunların arasında ilk növbədə ABŞ-ın Azərbaycandakı səfirliyi, Açıq Cəmiyyət institutunun Bakı ofisi, Amerika Kitabxana Assosiasiyasını qeyd etmək olar. Fakültənin bir çox beynəlxalq proqramlarda və layihələrdə yaxından iştirakı məhz AKİİA-nın təşkilati dəstəyi ilə mümkün olmuşdur. Bu layihə və tədbirlər təkcə universitetə deyil, bütün respublikada kitabxana işinə fayda gətirmişdir. Belə tədbirlər içərisində 1999-cu ildə ABŞ-ın Azərbaycandakı səfirliyinin təşkilati və maliyyə yardımı ilə keçirilmiş seminarı qeyd etmək olar. Respublikamızda kitabxana fəaliyyəti ilə bağlı ilk beynəlxaq tədbir olan bu seminara ABŞ-dan, Litvadan və Rusiya Federasiyasından gəlmiş kitabxanaçı mütəxəssislər qatılmışdı. Buraya müasir kitabxana-bibilioqrafik fəaliyyətdə geniş istifadə edilən maşınla oxunan kataloqlaşdırma (MARC) texnologiyaları müzakirə edilmişdir. Xaricdən gələn qonaqlar fakültədə olan tədris prosesi ilə tanış olmuşlar.

Yenə həmin ildə fakültənin alimlərinin və AKİİA-nın təklifi və ABŞ səfirliyinin dəstəyi ilə Bakıda Kitabxanaçılar üçün İnformasiya-resurs və təlim mərkəzi (KİRTM) təsis edilmişdir ki, burada kitabxana işçiləri ilə yanaşı fakültənin əməkdaşları da yeni kitabxana-informasiya texnologiyalarına dair məşğələlərdə iştirak etmişdir. Bu mərkəzin rəhbərləri amerikalı Kitabxana mütəxəssisi Pol Miller və digər mütəxəssislər fakültənin beynəlxalq nüfuz və əlaqələrinin genişlənməsinə öz yardımını göstərmişlər.

Fakültənin beynəlxalq əlaqələrinin inkişafında Avrasiya fondunun dəstəyi ilə həyata keçirilmiş "Qafqaz " Treninq

mərkəzinin böyük əhəmiyyəti olmuşdur. Cənubi Qafqaz Respublikalarında kitabxana işinin kitabxanaçı təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə yönəlmiş bu layihədə bu sahənin mütəxəssisləri üçün yeni tipli interaktiv məşğələlər keçirilmişdir ki, bu işdə də fakültənin əməkdaşlarına amerikalı və gürcü mütəxəssisləri yardım göstərmişlər. Layihə çərçivəsində fakültənin nümayəndəsi, AKİİA-nın prezidenti prof. X.İsmayılov bir neçə dəfə Tbilisi şəhərində olmuş gürcu həmkarlar ilə faydalı görüşlər keçirmişdir.

Fakültənin beynəlxaq əlaqələrinin genişləndirilməsində Avropa Şurasının TASİS proqramının çərçivəsində həyata keçirilən "Universitetlərin modernləşməsi" proqramının da böyük əhəmiyyəti olmuşdur. Bu uzun müddətli proqram Avropanın İnkişaf etmiş ölkələrinin ilk növbədə Fransa və Belçikanın ali təhsil sahəsində təcrübəsinin öyrənilməsində və MDB ölkələrində, o cümlədən Azərbaycanda tətbiq edilməsini nəzərdə tuturdu. Bu layihə çərçivəsində fakültənin dekanı prof. X.Ismayılov 2001-ci ilin iyulunda Belçikanın Namur şəhərində, 2003-cü ilin mayında isə Fransanın müxtəlif şəhərlərində yerləşən ali məktəblərdə olaraq orada təhsil işinin təşkili ilə yaxından tanış olmuşlar. Bu proqram çərçivəsində fakültənin müəllimi Ə.M.Məmmədov da 2002-ci ilin noyabrında Lion şəhərində yerləşən Milli Ali Kitabxanaçılıq Informasiya mərkəzində keçirilən təlimlərdə iştirak etmişdir.

Fakültənin yaxından iştirak etdiyi digər bir beynəlxalq layihə ABŞ Dövlət Departamentinin yardımı ilə həyata keçirilmiş BDU və İndiana Universitetləri (ABŞ) arasında əlaqə proqramı olmuşdur. Hər iki universitetin pedaqoji kollektivi arasında əlaqələrin yaradılması, təcrübənin qarşılıqlı öyrənilməsinə yönəlmiş bu layihədə əsasən BDU-nun Tarix, Hüqüq, Jurnalistika və o cümlədən Kitabxanaçılıq-informasiya fakültəsinin əməkdaşları yaxından iştirak etmişdir. Bu layihə çərçivəsində fakültənin müəllimi Ə.M.Məmmədov 2003-cü ilin yanvar-may aylarında İndiana Universieti (KİEA Bliminqton) Kitabxana-informasiya Elmləri məktəbində ixtisasartırma kurslarında olmuşdur. Bu ezamiyyət ərzində o dörd konfransda iştirak etmiş və tezis dərc etdirmişdir. Bu

proqramın tərkib hissəsi kimi 2003-cü ildə İndiana Universiteti və (Bliminqton) əsas kitabxana işinin biblioqrafı Bob Qollart BDU-ya gələrək universitetin və Kitabxanaçıhq-informasiya fakültəsinin işi ilə yaxından tanış olmuşdur. Bundan əlavə yenə həmin universitetin Kiev-m magistri Meqan Mok Kril də 3 ay ərzində BDU-da olmuş, Amerika-şünaslıq mərkəzində çalışmış, Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri ilə təlim keçmişdir.

Fakültənin beynəlxalq əlaqələrinin genişlənməsində yuxarıda adı qeyd edilmiş AKİİA-nın böyük xidmətləri olmuşdur. Bu təşkilat dünyanın Kitabxana-informasiya fəaliy-yəti sahəsində ən böyük beynəlxalq təşkilatına-IFLA-ya Azər-baycandan üzv kimi qəbul edilmiş ilk təşkilat olmuşdur. AKİİA-nın prezidenti prof. X.İsmayılov iki dəfə (2001-ci il Boston və 2005-ci il Oslo) IFLA-nın illik konfranslarında iştirak etmiş Azərbaycan nümayəndə heyətinə başçılıq etmişdir. 2001-ci il konfransının işində prof. X.İ.İsmayılovla yanaşı, fakültənin müəllimi Ə.M.Məmmədov da iştirak etmişdir.

Fakültənin Baltikyanı ölkələrdəki həmkarları ilə də sıx beynəlxalq əlaqələri mövcuddur. Belə ki, bu ölkələrin nüma-yəndələri dəfələrlə Azərbaycanda və fakültənin nümayəndələri ilə də həmin ölkələrdə olmuş faydalı əməkdaşlıq quraraq in-kişaf etdirmişdir. 2004-cü il 4-11 noyabrda Açıq Cəmiyyət İnstitunun yardımı ilə prof. X.İ.İsmayılovun başçılığı ilə Azər-baycanı təmsil edən nümayəndə heyəti Litvaya səfər etmişdir. Həmin ölkədə kitabxanaçıhq işi, kitabxana-informasiya təhsili, peşə təşkilatlarının fəaliyyəti ilə tanış olmuşlar. Səfər çərçi-vəsində onlar Vilnüs Universitetinin işi, oranın elmi kitabxa-nasının fəliyyəti və kitabxanaçılıq fakültəsinin işi ilə yaxından tanış olmuşlar.

Fakültənin məzunları, demək olar ki, Azərbaycan Milli Kitabxanasından başlamış kənd kitabxanalarına qədər, bütün kitabxana şəbəkələrində müvəffəqiyyətlə çalışmaqdadırlar. Respublikanın bütün kitabxana müəssisələrində, elmi, elmi-tex-niki, xüsusi, kütləvi kitabxanalarda rəhbər işlərdə, mühüm elmi vəzifələrdə çalışan məzunlarımız ən dərin biliyi, professionallığı, yüksək elmi, intellektual səviyyəsi, böyük vətəndaşlığı ilə

fərqlənirlər.

Kitabxanaçılıq fakültəsi respublikamızda yaranmış belə bir ictimai fikirlə fəxr edə bilər ki, bu fakültənin yetişdirmələri öz elmi dünyagörüşləri, intellektual səviyyələri, professionallığı, yüksək mədəniyyəti və dərin biliyi ilə fərqlənirlər. Bunun səbəbini isə fakültə tələbələrinin sosial mənşəyində, tələbələrin əksəriyyətinin sadə zehmətkeş balaları olmasında axtarırlar. Bu fikirlə qismən razılaşmaq olsa da, tələbələrin yüksək ziyalı kimi yetişməsinin əsas səbəbini fakültədə olan ciddi təhsil intizamında, tələbələrə qarşı obyektivlikdə, ayrı-seçkiliyin olmamasında, tədris prosesinin yüksək səviyyədə təşkilində, fakültədə mühazirələr oxuyan bütün alimlərin, həm ixtisas, həm də digər elmi fənlərdən dərs deyən müəllimlərin vicdanlı zəhmətində, işçi kollektivinin əmək intizamında və sağlam ictimai mühitdə axtarmaq lazımdır.

Doğrudan da, Kitabxanaçılıq fakültəsinin məzunları sırasında elmlər doktorları, professorlar, elmlər namizədləri, dosentlər, görkəmli yazıçılar, şairlər, ictimai və dövlət xadimləri, Milli Məclisin üzvləri, jurnalistlər, hüquq mühafizə orqanları əməkdaşları, inzibati işçilər, ayrı-ayrı nazirliklərdə müvəffəqiyyətlə çalışan kadrlar çoxdur. Bunların içərisindən bir neçəsinin adını çəkmək yerinə düşər: elmlər doktorları, professorlardan Abuzər Alı oğlu Xələfov, Bayram Vəli oğlu Allahverdiyev, İslam Məmməd oğlu Ağayev, Zöhrab Hüseyn oğlu Əliyev, Xəlil İsmayıl oğlu İsmayılov, Əsədulla Cücü oğlu Qurbanov, Qara Mustafa oğlu Namazov, Kərim Hüseyn oğlu Həsənov; elmlər namizədi, dosentlərdən Əşrəf Teymur oğlu Xələfov, Əli Musa oğlu Rüstəmov, Sahib Mirzalı oğlu Rzayev, Mayıl Mikayıl oğlu Həsənov, Nadir İslam oğlu İsmayılov, Almaz Nüsrət qızı Abbasova, Aşur Müseyib oğlu Əliyev, Rasim İmanqulu oğlu Süleymanov, Emin Əfəndiyev, Fazil Məmmədov, Zülfəli İbrahimov, İsmayıl Əyyubov, Azər Hüseynov, Yasif Nəsirli kitabxana işinin görkəmli təşkilatçılarından Kərim Tahirov, Füzurə Quliyeva, Aybəniz Əliyeva-Kəngərli, Müzəffər Həsənov, Tamella İsmixanova, Sara İbrahimova, Narıngül Xələfova, Cabir Ağaməmmədov, Mirzəmməd Novruzov, Asif Bayramov,

Ələddin Əliyev, Rəfiqə Zərdabi, şair, yazıçı və jurnalistlərdən Zəlimxan Yaqub, Əlisa Nicat, Məmməd İsmayıl, Şakir Yaqubov, Əhməd İsayev, Knyaz Aslan, Akif Nəsirov, Bahəddin Həziyev, Qafar Əliyev, Şəlalə Məhiy-yəddinqızı və neçə-neçə başqaları məhz universitetin kitab-xanaçılıq fakültəsinin yetirmələridir.

Fakültənin kollektivi həmişə tanınmış yetirmələri, görkəmli məzunları ilə fəxr edir, onlarla müntəzəm yaradıçılıq əlaqələri saxlayır, maraqlı görüşlər keçirir.

Məzunların istehsalatda, ictimai həyatda özlərinə layiqli yer tutması, mədəniyyətimizin inkişafının aparıcı qüvvələrindən birinə çevrilməsi, sosial tərəqqidə yaxından iştirak etməsi fakültə müəllimlərinin iftixarı və şərəfidir.

**XƏLİL İSMAYILOV**

**Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, tarix elmləri doktoru, professor**

# Biblioqrafik göstərici

**KİTABXANAŞÜNASLIQ KAFEDRASI**

**PROFESSOR XƏLƏFOV ABUZƏR ALI OĞLU**
**KAFEDRA MÜDİRİ**

**Kitablar**

**1.** Kitabxana fondunun təşkilinin bəzi məsələləri. – B.: ADU, 1958. – 64s.
**2.** Sovet İttifaqı Kommunist partiyası kitabxana işi haqqında. - ADU, 1959. - 30s.
**3.** Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920). –ADU, 1960. – 95s.
**4.** Sovet Azərbaycanında kitabxana işinin tarixi (1920-1932). – ADU, 1960. – 187s.

**5.** Из истории библиотечного дела в Советском Азербайджане (1920 – 1932 гг.): Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. – Б., 1961. – 17с.

**6.** Azərbaycanda kitabxana işinin tarixi (1933-1958). – B.: Azərnəşr, 1974. – 244s.

**7.** V.İ.Lenin və kitabxana işi. – B.: Azərnəşr, 1974. – 104s.

**8.** История библиотечного дела в Азербайджане (1933-1958 гг.): Автореферат диссетации на соискание ученой степени доктора исторических наук. – Б., 1974. – 138с.

**9.** Библиотечный факультет. –Б., 1981. –32с.

В соавторстве Р.А.Кязимовым.

**10.** Azərbaycanda kitabxana işinin tarixindən (Qədim dövrdən XVIII əsrin axırınadək). – B.: Bilik, 1986. – 51s.

**11.** Kitabxana işçisinin məlumat kitabı. –B.: Azərnəşr, 1986. –286s.

R.Kazımov və E.Bədəlovla birlikdə.

**12.** Azərbaycanda kitabaxaçılıq təhsilinin inkişafı. – B.: Maarif, 1987. – 132s.

**13.** Azərbaycanda kitabxana işinin tarixi: Proqram. – B.: BUN, 1994. – 26s.

**14.** Kitabxanaşünaslığa giriş: Kitabxanaçılıq fakültələri üçün: Proqram – metodik nəşr. – B.: BUN, 1994. – 16s.

R.Ə.Kazımovla birlikdə

**15.** Kitabxana işinin tarixi kursuna giriş. – B.: BUN, 1996. – 36 s.

**16.** Kitabxanaşünaslıq (kitabxana kataloqları): «Kitabxanaşünaslıq» ixtisası üzrə təhsil alan ali məktəb tələbələri üçün dərs vəsaiti. – B.: BUN, 1996. – 212s.

T.Quliyev, M.Həsənov, A.Əliyev və S.Mustafayeva ilə birlikdə.

**17.** Kitabxanaşünaslığa giriş: Dərs vəsaiti. – B.: BUN, 1996. – 60 s.

**18.** Azərbaycanda ali kitabxanaçılıq təhsili. – B.: BDU, 1998. – 130s.

**19.** Kitabxanaşünaslığın müasir problemləri: BDU-nun kitabxanaçılıq fakültəsində «Kitabxanaşünaslıq» ixtisası üzrə magist dərəcəsi almaq üçün: Proqram. – B.: BUN, 2000. – 7s.

**20.** Kitabxanaşünaslığın tarixi və metodologiyası: BDU-nun kitabxanaçılıq fakültəsində «Kitabxanaşünaslıq» ixtisası üzrə magistr dərəcəsi almaq üçün: Proqram. – B.:BUN, 2000. – 14s.

**21.** Respublika Elmi Texniki Kitabxanası (1930-2000): Kitabxananın 70 illiyinə həsr olunmuş qısa tarixi oçerk. – B.: BUN, 2001. – 38s.

**22.** Azərbaycanda kitabxana işinin tarixi (qısa icmal). – B.: BUN, 2001. – 52s.

**23.** Kitabxanaşünaslığa giriş: Dərslik: (üç hissədə) h.1–2. – B.: BUN, 2001. – 400s.

**24.** Kitabxana işinin tarixi kursuna giriş. – B.: Bakı Universiteti Nəşriyyatı, 2002. – 38s.

**25.** Kitabxanaşünaslığa giriş: Kitabxanaçılıq – informasiya fakültəsinin bakalavr təhsili üçün: Proqram. – B.: Bakı Universiteti Nəşriyyatı, 2002. –34s.

**26.** Kitabxanaşünaslığa giriş: Dərslik: (üç hissədə) h.3. – B.: Bakı Universiteti Nəşriyyatı, 2003. – 314 s.

**27.** Heydər Əliyev: Biblioqrafik məlumat kitabı /Red. və ön sözün müəllifi A.M.Məhərrəmov. –B.: Bakı Universiteti Nəşriyyatı, 2003. –434s.

S.A.Sadıqova ilə birlikdə.

